RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 214 (8237) ŞƏNBƏ, 28 sentyabr 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Tarixi rekord

## Gələn ilin büdcə xərclərinin 40,7 faizinin sosial məsələlərə yönəlməsi dövlətin iqtisadi konstitusiyasının sosialyönümlülüyünü bir daha təsdiqləyir

Bütün illərdə olduğu kimi, 2019-cu ilin ötən 8 ayı ərzində də ölkədə makroiqtisadi sabitliyin təmini, struktur, institusional və sosial islahatların sürətləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilib. Görülən işlər, reallaşan sosial-iqtisadi layihələr, iqtisadiyyata yatırılan investisiyalar, regionların inkişafı ilə bağlı qəbul edilən (2019-2023-cü illər) yeni dövlət proqramı onu deməyə əsas verir ki, gələn il də ölkədə bütün sahələr üzrə inkişaf müşahidə olunacaq.

### Gəlirlər 24,4, xərclər isə 25,6 milyard manat proqnozlaşdırılır

Bütün bunlar gələn ilin dövlət büdcəsi zərfində də öz əksini tapıb. Milli Məclisin payız sessiyasında müzakirəyə çıxarılacaq "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan digər qanun layihələrinin artıq ilkin parametrləri bəllidir.

Maliyyə Nazirliyi tərəfindən ilk dəfə olaraq hazırlanan bu sənədə əsasən 2020-ci ilin dövlət büdcəsinin gəlirləri 24 milyard 484 milyon manat səviyyəsində proqnozlaşdırılır. Bu da cari ilin büdcəsinin gəlirlərindən 1 milyard 316 milyon manat, yaxud 5,7 faiz çoxdur. Xərclər isə 25 milyard 617,7 milyon manatdır. Bu isə 2019-cu ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə 427,7 milyon manat çoxdur.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu inkişaf strategiyası ölkədə təşəkkül tapmış makroiqtisadi sabitliyi və maliyyə dayanıqlığını daha da möhkəmləndirməyə, iqtisadi inkişaf, təhlükəsizlik sahəsində dövlət siyasətinin prioritetlərini və məqsədlərini həyata keçirməyə imkan yaradıb.

### 1 barel xam neftin qiyməti 55 dollardan götürülüb

Son illərdə investisiya və biznes mühitinin yaxşılaşdırılması, dövlətin maliyyə idarəedilməsində şəffaflığın və hesabatlılığın artırılması istiqamətində də əhəmiyyətli addımlar atılır. İlk dəfə olaraq büdcənin təsnifatı ilə bağlı hazırlanan sənəd də bunu bir daha təsdiqləyir. Bu sənəd 2020-ci ilə və ortamüddətli dövrə dair makroiqtisadi proqnozları, büdcə-vergi siyasətinin əsas istiqamətlərini, dövlət büdcəsinin prioritet gəlir və xərclərini, habelə dövlət borcuna dair əsas məlumatları özündə əks etdirir. Sənəddə qeyd edilir ki, 2019-cu ilin birinci yarısında ölkə idtisadiyyatının son illərdəki xarici şoklardan bərpa prosesi davam edib. Ötən ilin eyni dövrü ilə müqayisədə iqtisadiyyatda 2,4 faiz artımla 37,8 milyard manat dəyərində ümumi daxili məhsul istehsal edilib. İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanan proqnozlara əsasən, bu meyillərin 2020-ci il və ortamüddətli dövrdə də davam etməsi gözlənilir. Belə ki, proqnoza əsasən, gələn il üçün ümumi daxili məhsulun (ÜDM) real iqtisadi artımı 82,7 milyard manat olacaq. O cümlədən qeyri-neft ÜDM-in artımı 54,2 milyard manat təşkil edəcək. ÜDM ortamüddətli dövrdə orta hesabla 3 faiz real artımla 2023-cü ildə 96,9 milyard manat təşkil edəcək.

Bu ilin ilk yarısında Azərbaycanın xarici ticarət dövriyyəsi 16,9 milyard dollar olub ki, bunun da 7 milyard dolları idxal əməliyyatları, 9,9 milyard dolları isə ixracın payına düşüb. Nəticədə xarici ticarət hesabında 2,9 milyard dollarlıq müsbət saldo yaranıb.

Proqnozlara əsasən, ortamüddətli dövr ərzində xarici ticarət balansının mütəmadi artımı gözlənilir. 2020-ci il üçün ixraca göndəriləcək bir barel xam neftin qiyməti 55 dollar səviyyəsində proqnozlaşdırılır.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə minimum əməkhaqqının, bir sıra müavinətlərin, təqaüdlərin, dövlət qulluqçularının, hüquq mühafizə orqanları əməkdaşlarının, müəllimlərin, büdcədən maliyyələşən digər təşkilatlarda çalışanların əməkhaqlarının artırılması, habelə əmək pensiyalarının minimum məbləğinin artırılması haqqında qanunvericiliyə edilən dəyişikliklər sosial xərclərin atrımını şərtləndirib.

Ona görə də bütün illərdə olduğu kimi, yenə də büdcənin sosialyönümlülüyü təmin ediləcək. Bu əsasda, əməyin ödənişi, təqaüdlər və sosial müavinətlər, o cümlədən, əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin möhkəmləndirilməsi üzrə maliyyə təminatının yaradılması prioritet xərc istiqamətlərindən olacaq.

Büdcənin sosialyönümlü xərcləri cəmi xərclərin 40,7 faizini (2019-cu ildə 33,4 faiz) təşkil edəcək ki, bu da cari illə müqayisədə 2664,2 milyon manat çoxdur. Əməyin ödənişi üzrə xərclər 6723,4 milyon manat, təqaüdlər və sosial müavinətlər üzrə xərclər 3213,4 milyon manat, ərzaq məhsullarının alınması və təminatı üzrə xərclər 414 milyon manat (2019-cu ildə 640,6 milyon manat) və digər sosial xərclər üçün 81,2 milyon manat təşkil edəcək.

### İcbari tibbi sığortanın tətbiqi üçün 902,9 milyon manat vəsait ayrılacaq

Ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi, xüsusi müdafiə xarakterli layihələr və tədbirlər üçün maliyyə təminatının yaradılması 2020-ci il və ortamüddətli dövrdə də davam etdiriləcək. Xərc siyasətinin digər mühüm istiqaməti ərzaq təhlükəsizliyinin təmin edilməsi olacaq.

Ardı 5-ci səh.

# Jak Şirak Azərbaycanın yaxın dostu olmuşdur





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 27-də Fransa Respublikasının ölkəmizdəki səfirliyinə gələrək, Fransanın sabiq prezidenti, görkəmli dövlət xadimi Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı veriblər.**

AZƏRTAC xəbər verir ki, Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qros Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşıladı.

Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fransanın sabiq prezidenti Jak Şirakın vəfatı ilə əlaqədar başsağlığı verdi, matəm kitabına ürək sözlərini yazdılar.

Səfirlə söhbət edən Prezident **İlham ƏLİYEV** dedi: Cənab səfir, bizim başsağlığımızı qəbul edin. Prezident Şirak Azərbaycanın yaxın dostu olmuşdur. Biz onu mənim atamla şəxsi dostluğu başlayan dövrdən tanıyırıq və onların birgə səyləri nəticəsində ölkələrimiz arasında çox yaxın tərəfdaşlıq münasibətləri qurulmuşdur. Biz onunla görüşlərimizi xatırlayırıq. Bildiyiniz kimi, mən ilk dəfə Prezident seçiləndə xaricə etdiyim ilk rəsmi səfər Fransaya olmuşdur. O vaxt prezident Şirak məni rəsmi səfərə dəvət edən ilk xarici dövlət başçısı olmuşdur və bu, bizim əməkdaşlığın çox yaxşı göstəricisi idi. O vaxtdan bəri ölkələrimiz arasında əməkdaşlıq uğurla inkişaf edir. Bu yaxınlarda sizinlə də görüşdə mən ölkənizin prezidentləri ilə görüşlərdən xatirələrimi bölüşdüm. Bir daha bizim başsağlığımızı qəbul etməyinizi xahiş edirəm.

Səfir **Zakari QROS** dedi: Cənab Prezident, hörmətli Birinci vitse-prezident, buraya gəlməyinizə və sözlərinizə görə Sizə təşəkkür edirəm. Prezident Makron və Fransa xalqı adından səmimi sözlərinizi və burada olmağınızı yüksək qiymətləndirdiyimizi bildirmək istəyirəm. Sizin də qeyd etdiyiniz kimi, prezident Şirak Fransada və beynəlxalq arenada birləşdirici rol oynayaraq sülhü təşviq etmiş dövlət xadimi olmuşdur. Gəlişiniz bizi təsirləndirdi, Sizə minnətdaram.




# Azərbaycan "Doing Business 2020" hesabatında ən islahatçı 20 ölkə sırasında yer alıb

Azərbaycan Dünya Bankının nüfuzlu "Doing Business 2020" hesabatında ən islahatçı 20 ölkə sırasına daxil edilib.

AZƏRTAC xəbər verir ki, hesabata əsasən, Azərbaycan "Doing Business" üzrə dörd sahə üzrə sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı asanlaşdırıb. Bu sahələr əmlakın qeydiyyatı, kreditlərin alınması, minoritar investorların hüquqlarının qorunması və müqavilələrin icrasının təmin edilməsidir.

Hesabatda qeyd edilir ki, paytaxtın kadastr xəritəsinin tərtib olunması və Bakıdakı hər bir fərdi torpaq sahəsinin qeydiyyatı, eləcə də mövcud sənədləşmənin təkmilləşdirilməsi və daşınmaz əmlak prosedurlarının çevikliyi nəticəsində daşınmaz əmlakın qeydiyyatı prosesi daha da sürətlənib. Minoritar investorların hüquqlarının müdafiəsi tərəflərin imzaladığı əlverişsiz sazişlər üzrə məsuliyyətin direktorlar üzərinə qoyulmasından sonra güclənib. Kommersiya ilə bağlı mübahisələr yarandıqda tərəflər onlayn olaraq müraciət göndərə və vasitəçilik etmək üçün maddi stimul əldə edə bilərlər.

Xatırladaq ki, Azərbaycan "Doing Business 2019" hesabatında 32 pillə irəliləyərək ən islahatçı ölkələr sırasında 57-ci pillədən 25-ci yerə yüksəlmişdi.

# Neft-qaz layihələrinin reallaşmasında yerli mütəxəssislər önəmli rol oynayır



**Prezident İlham ƏLİYEV:**

"Əsrin kontraktı"nın ölkəmiz üçün çoxşaxəli faydası var. Onlardan biri də kadr hazırlığıdır"

Neft-qaz və ixrac layihələri Azərbaycan iqtisadiyyatının inkişafına böyük təkan verib. Bu layihələrin ən önəmli cəhətlərindən biri yüksək səviyyəli kadr hazırlığı üçün yeni imkanların yaradılmasıdır.

Bunun nəticəsidir ki, hazırda ölkədə fəaliyyət göstərən xarici şirkətlərdə və neft-qaz əməliyyatlarında iştirak edənlərin mütləq əksəriyyəti Azərbaycan vətəndaşıdır. Prezident İlham Əliyev son illərdə mükəmməl təhsil almış və təlim keçmiş gənc azərbaycanlı mütəxəssislərin ölkəmiz üçün böyük işlər gördüyünü dəfələrlə vurğulayıb.

Beynəlxalq neft-qaz layihələrindən söhbət gedəndə ilk növbədə "Azəri-Çıraq-Günəşli" (AÇG) yada düşür. Yerli kadrların getdikcə işə daha çox cəlb olunması da elə bu layihədən başlanıb. Xatırladaq ki, sonralar "Əsrin müqaviləsi" adını almış AÇG sazişi üzrə işlər təzə başlananda burada çalışanların 90 faizi xarici vətəndaşlar idi. O zaman daha çox yerli mütəxəssis və ixtisaslı fəhlələrin işə götürülməsi, məhz onların sayının 90 faizə çatdırılması qarşıya məqsəd qoyulmuşdu. İllər keçdikcə nisbət həqiqətən dəyişdi və indi neft-qaz layihələrində çalışanların yalnız 10 faizi əcnəbilərdən ibarətdir.

Ardı 5-ci səh.

# Paşinyan danışıqlar prosesinə zərbə vurur

## Ermənistanın baş nazirinin sərsəm bəyanatları Yerevan üçün yeni problemlər yaradır

Ermənistanda son hakimiyyət dəyişikliyindən sonra iqtidara gələn yeni qüvvələrin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sərgilədikləri mövqe, xüsusən də baş nazir Nikol Paşinyanın işğal edilmiş ərazilərdə yaradılan separatçı rejimin danışıqlar prosesində tərəf olmasını dəfələrlə gündəmə gətirməsi, bununla bağlı səsləndirdiyi bəyanatlar sülh prosesinin üzərindən xətt çəkməkdədir. Bütün bunlar eyni zamanda beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamə və qərarlarına açıq hörmətsizlikdir.

Xatırladaq ki, ötən ay Paşinyan Xankəndinin mərkəzi meydanındakı mitinqdə çıxış edərək Yerevanın Dağlıq Qarabağa dair danışıqlarda yürütdüyü diplomatiyanın yekun məqsədi "miatsum"dur (birləşmək) demişdi. Onun Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə istiqamətləndiklərini deməsinə baxmayaraq, "miatsum" şüarı məsələnin bu yolla nizamlanmasına şans vermir. Ümumiyyətlə, Ermənistanın baş naziri Nikol Paşinyanın Qarabağa dair bir-birini təkzib edən, yaxud avantürist mahiyyət daşıyıb danışıqların tamamilə dalana dirənməsinə gətirən bəyanatları məlumdur. Bu bəyanatların nəticəsi odur ki, baş naziri heç Ermənistanın özündə də Qarabağa dair danışıqlar aparacaq səviyyəyə və cəsarətə malik şəxs saymırlar, onun ölkəni təhlükəli müharibəyə sürüklədiyi haqda həyəcan təbili çalırlar.

Beləliklə, Paşinyan ən yüksək siyasi səviyyədə əsl niyyətinin danışıqlar vasitəsilə münaqişənin həlli deyil, Azərbaycan ərazilərinin qanunsuz işğalının davam etdirilməsi olduğunu növbəti dəfə nümayiş etdirməkdədir. Belə vəziyyətdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi müstəvidə həll ehtimalı artır ki, bu da ermənilər üçün əsl fəlakət anlamına gəlir.

"Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması"nın rəhbəri Tural Gəncəliyev deyib ki, baş nazir Nikol Paşinyan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında səsləndirdiyi bəyanatla Ermənistanın işğalçı ölkə olduğunu təsdiqlədi:

Ardı 4-cü səh.

## Beynəlxalq Valyuta Fondunun Sərəncamçı direktoru xanım Kristalina Georgiyevaya

Hörmətli xanım Georgiyeva!

Beynəlxalq Valyuta Fondunun Sərəncamçı direktoru vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Biz Azərbaycan ilə Beynəlxalq Valyuta Fondu arasındakı əməkdaşlığa böyük əhəmiyyət veririk. Bu baxımdan ölkəmizdə həyata keçirilən iqtisadi islahatlara Beynəlxalq Valyuta Fondunun dəstəyini məmnunluqla qeyd etmək istərdim.

Ümidvaram ki, Sizin rəhbərliyinizlə Beynəlxalq Valyuta Fondu qlobal maliyyə-iqtisadi və valyuta sisteminin idarə edilməsi ilə bağlı qarşısında duran məsul vəzifələrin öhdəsindən layiqincə gələrək, beynəlxalq maliyyə əməkdaşlığının möhkəmləndirilməsinə töhfələr verəcəkdir.

Bir daha Sizə öz təbriklərimi yetirir, möhkəm cansağlığı, qarşıdakı məsul işinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 sentyabr 2019-cu il*

## A.Ə.İbrahimova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə Aydın Əli oğlu İbrahimova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 sentyabr 2019-cu il*

## M.A.Talıbovun Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Afiq oğlu Talıbov Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 sentyabr 2019-cu il*

## Şabran rayonunun Surra-Düz Bilici-Qorğan-Çinarlar avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Dörd min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Surra-Düz Bilici-Qorğan-Çinarlar avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 12,0 (on iki) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 sentyabr 2019-cu il*

## C.S.Mirzəyevin Azərbaycan Respublikasının İndoneziya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Cəlal Sabir oğlu Mirzəyev Azərbaycan Respublikasının İndoneziya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 sentyabr 2019-cu il*

## A.X.Hüseynovun Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Anar Xeybər oğlu Hüseynov Azərbaycan Respublikasının Yunanıstan Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 sentyabr 2019-cu il*

## Baş Nazir Novruz MƏMMƏDOV: "Prezident Jak Şirakın xatirəsi uzun müddət yaddaşlarda qalacaqdır"





Novruz Məmmədov
@NovruzMammadov
#JacquesChirac

Görkəmli siyasət və dövlət xadimi, 1995-2007-ci illərdə Fransanın 22-ci Prezidenti olmuş Jak Şirakın vəfatı məni çox kədərləndirdi.

Dövlətlərarası münasibətlərə xüsusi həssaslıq nümayiş etdirən Prezident Şirakın beynəlxalq aləmdə böyük nüfuzu vardı. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həlli üçün çox çalışdı.

Prezident Jak Şirakın xatirəsi uzun müddət yaddaşlarda qalacaqdır.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş Naziri Novruz Məmmədov Fransa Respublikasının keçmiş prezidenti, görkəmli dövlət xadimi Jak Şirakın vəfatı ilə bağlı başsağlığı verib.

Baş Nazirin bununla bağlı "Twitter" səhifəsində etdiyi paylaşımda deyilir: "Görkəmli siyasət və dövlət xadimi, 1995-2007-ci illərdə Fransanın 22-ci prezidenti olmuş Jak Şirakın vəfatı məni çox kədərləndirdi. Dövlətlərarası münasibətlərə xüsusi həssaslıq nümayiş etdirən prezident Şirakın beynəlxalq aləmdə böyük nüfuzu vardı. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun həlli üçün çox çalışdı. Prezident Jak Şirakın xatirəsi uzun müddət yaddaşlarda qalacaqdır".

## Cəmiyyət virtual müxalifətin yeni iflasının şahidi oldu

*Əli ƏHMƏDOV:* "Prezident İlham Əliyevə, onun siyasətinə inam və etimad kifayət qədər yüksəkdir. Bu inam illərin təcrübəsinə söykənir və onu zəiflətmək heç kimə müyəssər olmayacaq"



Azərbaycan Respublikasının Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyasının sədr müavini-icra katibi Əli ƏHMƏDOV "Facebook" səhifəsində "Virtual müxalifətin iflası" sərlövhəli status paylaşıb. Virtual müxalif qüvvələrin növbəti avantürasının da iflas səbəblərini göstərən, radikalyönümlü fəaliyyətin artıq ölkəmizdə tam uğursuzluğa düçar olduğunu real faktlar timsalında təqdim edən mülahizələri oxuculara təqdim edirik.

Cəmiyyət virtual müxalifətin yeni iflasının şahidi oldu. Bir neçə həftədir virtual olaraq təbliğ edilən, az qala virtual müxalifətin "siyasi təntənəsinin başlanğıcı" adlandırılan 28 sentyabr mitinqi mifi gözlənilən sonuna çatdı. Mitinqə virtual "dəstəyin" real təcəssümünün olmaması, sadə şəkildə desək, cəmiyyətdə mitinq ab-havasının və mitinqdə iştirak etmək həvəsinin və həvəskarlarının olmaması üzündən müxalifət mitinqdən imtina etmək məcburiyyətində qaldı. Həmişə olduğu kimi, bir bəhanə uydurmağı da unutmadı. Lakin hər kəsə bir daha aydın oldu ki, müxalifətin yaratdığı virtual mitinq görüntüsünün cəmiyyətdəki real siyasi və ictimai proseslərlə heç bir əlaqəsi yoxdur. Virtuallıq və virtual müxalifətçiliyə ağır zərbə dəydi. Bu, onların sözün həqiqi mənasında iflası deməkdir.

Əslinə qalsa, müxalifətin iflası Azərbaycanın siyasi reallığının yeni hadisəsi deyil. 26 ildir ənənəvi müxalifət iflas rejimində yaşayır və "fəaliyyət göstərir". Səbəbi də çox sadədir. Hakimiyyətdə olduğu cəmi 13 ay ərzində törətdiyi əməllərə görə xalq tərəfindən devrilən partiyalar lazımi nəticələr çıxarmaq əvəzinə onları iflasa sürükləyən taktikalarını davam etdirməyə üstünlük verdilər və nəticədə sosial dayaqlarını bütünlüklə itirməli oldular, marginallaşdılar, cəmiyyətin mütləq əksəriyyətinin nəzərində yad ünsürlərə çevrildilər. Artıq neçə illərdir ki, ənənəvi müxalifətin yeganə fərqləndirici xüsusiyyəti nəyin bahasına olur-olsun hakimiyyətə gəlməkdir. Sübut etməyə ehtiyac yoxdur ki, "nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək" istəyi demokratik cəmiyyətlərdə adi norma sayılan siyasi azadlıqlar anlayışının bütünlüklə təhrif olunması, zədələnməsidir və onun demokratiya anlayışı ilə hər hansı əlaqəsindən söhbət gedə bilməz. Bu, xaos və anarxiyaya aparan başlıca yoldur ki, vaxtilə sınaqdan keçirilib, insanlar onun ağır fəsadlarını yaşayıb və bu səbəbdən də bir daha təkrar olunmasına qətiyyən imkan verməz. Xalqın mandatını qazanmağın yeganə vasitəsi yalnız və yalnız inamdan, etimaddan ibarətdir. Ənənəvi müxalifətin haqqında söhbət etdiyimiz siyasi resursu çoxdan tükənib və bu gün onun xalqla bağlılığını sübuta yetirən nəyisə tapmaq qeyri-mümkündür. Əhalinin müxalifətə illərdir davam edən etinasızlığı ilk növbədə məhz xalqla heç bir əlaqəsinin olmamasının nəticəsi kimi başa düşülməlidir.

Sözügedən ənənəvi müxalifət xeyli zamandır əsas etibarilə virtual aləmdə mövcuddur. Əslində bunun özü də həmin müxalifətin iflasının nəticəsi və təzahür forması sayıla bilər. Ənənəvi müxalifətin virtuallığı təkcə real həyatdan ayrılmağında deyil, həm də manipulyasiyalarla özünü cəmiyyətə real güc kimi təqdim etməyə çalışmasında təzahür edir. Bu qəbildən olan çabalamalara bəlkə də fikir verməyə dəyməz. Əgər kimsə özünü virtual aləmdə, trolların ətrafında güc sahibi sanıb təsəlli tapırsa, qoy tapsın. Vaxtilə ölkədə keçirilən prezident seçkilərindən sonra məğlub müxalifət nümayəndəsinin təxminən bir il özünü "prezident" adlandırması kimi tragikomik hadisə yaddaşlardan silinməyib. İndi isə yeni bir tragikomik hadisə müşahidə olunmaqdadır: məlum virtual müxalifət anonim tərəfdarlarının manipulyasiyaları sayəsində özünə "ana müxalifət" adı qoyub. Cəmiyyət bütün bunlara öldürücü sükutla cavab verir. Lakin görünür, virtual müxalifət öz uydurduğu yalana özü inanmağa başlayıb. Belə olmasaydı, bir neçə gün əvvəl virtual aləmdə sentyabr ayının 28-də keçirmək istədikləri mitinqdə insanların iştirakı ilə bağlı sorğu aparmaq niyyətinə düşməzdilər.

Hesab edirəm ki, virtual müxalifətin bu addımı onlardan ötrü soyuq duş effekti yaratdı: sorğuda iştirak edənlərin təxminən 90 faizi mitinq çağırışına "yox" dedi və virtual müxalifət daha acınacaqlı mənzərəni görməmək üçün sorğuları dayandırmalı oldu. Buna iflasdan başqa ad vermək mümkün deyil. Lakin bizi maraqlandıran təkcə insanların əksəriyyətinin həmin sorğulara mənfi reaksiyası deyil, zira nəticənin belə olacağına əsla şübhəmiz yox idi. Bizim üçün sorğunun digər vacib nəticəsi müxalifətin virtuallığının daha bir əyani sübutu olmasındadır. Bir daha isbat olundu ki, ənənəvi müxalifətin əhali arasında dayaqları tamamilə sıfır həddindədir və onlar öz mövcudluğunu göstərmək üçün virtual görüntü yaratmaqdan savayı çarə tapa bilmirlər. Virtual şəkildə isə mitinq keçirmək mümkün olmadığından bu cür cəhdlər iflasa gətirib çıxarır.

Virtuallıq müxalifətin əsl mahiyyətini ört-basdır etmək üsuludur. Virtual olaraq özlərini nə qədər "demokrat", "insan haqları fədaisi" kimi göstərməyə çalışsalar da, real həyatdakı qəddar, əzazil sifətləri gec-tez üzə çıxır. Virtual "demokratların" ailə üzvlərinə qarşı illərlə siyasi məqsədlərlə gizlədilən qəddarlığı bir neçə gündür bəzi dairələrdə geniş müzakirə və ikrah obyektinə çevrilib. Bu hadisə virtual müxalifətin iflasının və ifşasının daha bir sübutu olmaqla yanaşı, həm də riyakar mahiyyətinin qabarıq göstəricisidir.

Azərbaycan xalqı reallığı düzgün qiymətləndirməyi bacarır. İnkişaf, sabitlik, təhlükəsizlik həyatımızın başlıca reallığı, fundamental dəyərləridir. Bu dəyərlərə qarşı çıxanlar, ölkədə sabitliyi pozmağa cəhd göstərənlər həmişə olduğu kimi, yenə də xalqın ən ağır qınağına tuş gəlirlər. İnsanlar rahat həyatını, inkişafı, əmin-amanlığı kimlərinsə boş vədlərinə qurban vermək niyyətində deyil. Prezident İlham Əliyevə, onun siyasətinə inam və etimad kifayət qədər yüksəkdir. Bu inam illərin təcrübəsinə söykənir və onu zəiflətmək heç kimə müyəssər olmayacaq.

İnsanlar görür və inanır ki, bugünümüz nə qədər gözəldirsə, sabahımız daha gözəl olacaq.

## Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində müşavirə keçirilib

Sentyabrın 27-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aparatında 2019-cu il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırışa hazırlıqla əlaqədar qurumun müvafiq strukturlarının, yerli idarə, şöbə və bölmələrinin rəislərinin iştirakı ilə xidməti müşavirə keçirilib. Bu barədə AZƏRTAC-a Dövlət Xidmətindən məlumat verilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov müşavirədə xidmət tərəfindən görülmüş işlərə və qarşıda duran vəzifələrə dair geniş hesabat məruzəsi ilə çıxış edib, idarə, şöbə və bölmələrin xidməti fəaliyyətini qiymətləndirib.

Xidmət rəisi Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" sərəncamının icrası ilə əlaqədar xidmət tərəfindən həyata keçiriləcək tədbirlərin təşkili ilə bağlı zəruri məsələləri müşavirə iştirakçılarının diqqətinə çatdırıb. O, Silahlı Qüvvələrin şəxsi heyətlə komplektləşdirilməsi ilə əlaqədar çağırış prosesinin qanunvericiliyin tələblərinə uyğun həyata keçirilməsi, çağırışçıların öyrənilməsi və tibbi şəhadətləndirilməsinin yüksək səviyyədə təşkil olunması istiqamətində görülmüş işləri, həmçinin qarşıda duran vəzifələri bir daha diqqətə çatdırıb.

General-leytenant Arzu Rəhimov vətəndaşların müddətli həqiqi hərbi xidmətə hazırlanması və çağırılması, təntənəli yolasalma tədbirlərinin mütəşəkkil qaydada həyata keçirilməsi və çağırışçıların təyin olunduqları hərbi hissələrə təlimata müvafiq qaydada çatdırılması ilə bağlı tapşırıqlar verib.

Müşavirənin yekununda xidmət rəisi vətəndaş məmnunluğunun təmin olunmasının, vətəndaşların qəbulu və müraciətlərinə baxılmasının, əməkdaşlar arasında aparılan mənəvi-psixoloji işin müvəffəqiyyətlə davam etdirilməsinin, nöqsanların aradan qaldırılmasının və neqativ hallara qarşı bundan sonra da kəskin mübarizə aparılmasının zəruriliyini vurğulayıb.

## Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən sentyabrın 27-də Təhsil naziri Ceyhun Bayramov İsmayıllı şəhərindəki Heydər Əliyev Mərkəzində İsmayıllı və Ağsu rayon sakinlərini qəbul edib.

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin 2019-cu ilin sentyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq keçirilən qəbulda qeyd olunan rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak ediblər.

Nazir vətəndaşların müraciət və təkliflərini diqqətlə dinləyib, hər bir müraciətin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə konkret tapşırıqlar verib.

Qəbulda vətəndaşlar əsasən müəllimlərin işə qəbulu və yerdəyişməsi, işlə təminolunma, məktəb binalarının təmiri və digər məsələlərlə bağlı müraciətlər ediblər.

* * *

Sentyabrın 27-də Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev Qax şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Qax, Şəki, Zaqatala və Göyçay rayonlarından olan vətəndaşları qəbul edib.

Həmin gün Ekologiya və Təbii Sərvətlər nazirinin müavinləri Firdovsi Əliyev Balakən, Rauf Hacıyev isə Zaqatala rayonlarından olan vətəndaşlarla görüşüblər.

Qəbullar zamanı ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, hidrometeorologiya, ətraf mühitin monitorinqi və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərləri üzrə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

* * *

Kənd Təsərrüfatı naziri İnam Kərimov sentyabrın 27-də Ağdaş Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Ağdaş, Bərdə və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Daha sonra nazir İnam Kərimov Ağdaş Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub, fermerlərə informasiya məsləhət xidmətinin göstərilməsində iştirak edən Aqrar İnkişaf Könüllülərinin bir qrupu ilə görüşüb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 40 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

* * *

Sentyabrın 27-də Dövlət Gömrük Komitəsinin (DGK) rəhbərliyi Biləsuvar, İmişli, Neftçala və Cəlilabad rayonlarının sakinlərini, eləcə də bu bölgələrdə məskunlaşan məcburi köçkünləri qəbul edib.

Qəbulda vətəndaşların yalnız gömrük məsələləri ilə bağlı müraciətləri dinlənilib. Müraciətlər əsasən idxal-ixrac əməliyyatları zamanı rəsmiləşdirmə və digər gömrük məsələləri ilə bağlı olub.

Həmin gün Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, gömrük xidməti general-mayoru İsmayıl Hüseynov Neftçala, komitə sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev isə Cəlilabad şəhərində vətəndaşları qəbul edib.

Qəbullar zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib.

* * *

Əmlak Məsələləri Dövlət Komtəsinin (ƏMDK) sədri sentyabrın 27-də Bərdə rayonunda vətəndaş qəbulu keçirib.Komitədən bildirilib ki, rayonun Yeni Azərbaycan Partiyasının inzibati binasında keçirilən qəbulda vətəndaşların fərdi qaydada müraciətlərinə baxılıb. ƏMDK-nın müvafiq struktur bölmə rəhbərlərinin də iştirak etdiyi qəbulda səslənən müraciətlər əsasən daşınmaz əmlakın qeydiyyatı, o cümlədən fərdi həyət evi, bələdiyyələr tərəfindən müxtəlif məqsədlərlə ayrılmış torpaqların qeydiyyatı, vaxtilə verilmiş pay torpaqlarının sənədləri ilə faktiki vəziyyəti arasında uyğunsuzluqların aradan qaldırılması ilə əlaqədar olub. Eyni zamanda, torpaqların təyinatına uyğun istifadəsi, kateqoriyasının dəyişdirilməsi prosedurları, dövlət əmlakının özəlləşdirilməsi ilə bağlı müraciətlər də ünvanlanıb.

Qəbul zamanı bütün müraciətlər və qaldırılan məsələlər komitə sədri tərəfindən fərdi qaydada, diqqətlə dinlənilib. Bir neçə vətəndaşın müraciətləri elə yerindəcə həll edilib. Digər müraciətlərdə əks olunan məsələlərin araşdırılaraq həll olunması barədə müvafiq struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib, bəzi müraciətlərlə bağlı müvafiq komissiya yaradılıb.

* * *

Sentyabrın 27-də Energetika naziri Pərviz Şahbazov Tovuz şəhərində Enerji Məsələlərini Tənzimləmə Agentliyinin Tovuz filialının inzibati binasında vətəndaş qəbulu keçirib. Həmin gün Energetika nazirinin müavini Samir Vəliyev Qazax şəhərində Qazax və Ağstafa rayonlarının, nazir müavini Elnur Soltanov isə Şəmkir şəhərində yerli sakinləri qəbul edib.

Energetika Nazirliyindən bildirilib ki, vətəndaşların müraciətləri elektrik enerjisi və qaz təchizatı, elektrik xətlərinin istismara yararsız olması, elektrik enerjisinin keyfiyyəti, enerji təchizatında fasilələr, elektrik enerjisi və qaza görə borc və cərimələr, işlə təminat və digər məsələləri əhatə edib.

Nazirliyin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbullarda vətəndaşların müraciəti dinlənilib, qaldırılan məsələlərin araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

***AZƏRTAC***

# VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının açılışı olub




Sentyabrın 27-də Bakı İdman Sarayında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının açılışı olub.



AZƏRTAC xəbər verir ki, VI Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illiyinə həsr olunub.

Açılışda çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev Bakıda keçirilən builki kitab sərgi-yarmarkasına böyük marağın olduğunu deyib. Bildirib ki, Azərbaycan xalqının mənəvi dünyasında kitab həmişə özünəməxsus dəyərli yer tutur: “Avesta”dan, “Kitabi-Dədə Qorqud” dastanından başlayaraq xalqımız öz ədəbiyyatına və mədəniyyətinə böyük diqqətlə yanaşıb. Biz böyük ədiblərimizin adı ilə həmişə fəxr etmişik. Onların yazdığı dəyərli bədii nümunələri əsrlərlə nəsildən-nəslə ötürərək bugünümüzə gətirib çatdırmışıq. Bu ədəbi nümunələr incəsənətin bütün sahələrinə sirayət edib. Bu əsərlər əsasında musiqilər yazılıb, tamaşalar səhnəyə qoyulub, rəsm əsərləri yaradılıb, filmlər çəkilib. Məqsədimiz ondan ibarətdir ki, xalqımızın kitaba sevgi ənənəsini qoruyaq, daha da inkişaf etdirək, gənclərimizə ötürək. Müasir texnoloji inqilablara baxmayaraq, kitaba sevgini yaşatmalıyıq. Kitab keçmişdə də olub, bu gün də var və gələcəkdə də olacaq. Çünki kitablar insan zəkasını zənginləşdirən xəzinədir”.

Əbülfəs Qarayev son illər ölkəmizdə poliqrafiya sənətinin inkişafından söz açaraq bildirib ki, Azərbaycan hər il beynəlxalq kitab sərgi-yarmarkalarında təmsil olunur və kitablarımız ən yüksək mükafatlara layiq görülür: “Sevindirici haldır ki, bu il Moskvada keçirilən MDB-nin “Kitab sənəti” beynəlxalq müsabiqəsində Nizami Gəncəvinin “Xosrov və Şirin” kitabı Qran-Pri mükafatını qazanıb. Həmçinin müxtəlif nominasiyalar üzrə müsabiqələrdə iştirak edən daha bir neçə kitabımız da mükafat və diplomlara layiq görülüb. Beynəlxalq kitab sərgilərinə təqdim olunan məhsullar arasında həm dövlət, həm özəl nəşriyyatların, eləcə də Heydər Əliyev Fondunun nəşrləri yer alır. Fondun bir sıra kitabları nəşriyyat işinin ən yaxşı nümunələri sırasındadır”.

Nazir qeyd edib ki, Azərbaycan dövləti nəşriyyat-poliqrafiya sahəsinin inkişafına qayğı göstərir: “Əsas məqsəd kitab nəşri sahəsində ən müasir texnologiyaların ölkəmizə gətirilməsinə nail olmaq, kitabın təbliği və yayılması, dərsliklərin, lüğətlərin, tərcümə və elmi ədəbiyyatların işıq üzü görməsinə yönəlmiş qərar və göstərişlərin icrasını vaxtında təmin etmək, gənc nəslin kitaba maraq və sevgisini daha da artırmaq, Azərbaycan oxucusunu dünyanın aparıcı nəşriyyatlarının məhsulları ilə tanış etməkdir. Bu istiqamətdə görülən işlər Prezident İlham Əliyevin Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi və dünya ədəbiyyatının Azərbaycan dilində çap edilməsi haqqında imzaladığı müvafiq sərəncamlara uyğun olaraq gerçəkləşdirilir”.

Son illər Azərbaycanda beynəlxalq tədbirlərin mütəmadi olaraq keçirilməsini yüksək qiymətləndirən Əbülfəs Qarayev belə tədbirlərin dünya ictimaiyyəti tərəfindən də rəğbətlə qarşılandığını qeyd edib. Bildirib ki, bu günlərdə davam edən XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı, sentyabrın 28-dən oktyabrın 1-dək təşkil olunacaq Nəsimi festivalı və digər tədbirlər ölkəmizin həyatında mühüm mədəni hadisə kimi yaddaşlara yazılacaq. Bu mühüm mədəniyyət tədbirləri Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın davamlı diqqət və qayğısı nəticəsində reallaşdırılır.

Vurğulayıb ki, sərgi-yarmarka zamanı 3 gün boyunca 81 yerli və 22 ölkədən 40 xarici nəşriyyat, poliqrafiya müəssisəsi, kitab evləri və s. qurumlar öz nəşrlərini sərgiləyəcək və kitablarının satışını həyata keçirəcəklər. Eyni zamanda, sərgi çərçivəsində tanınmış şair-yazıçıların, elm adamlarının iştirakı ilə çoxsaylı kitab təqdimatları, imza günləri və s. tədbirlər təşkil olunacaq.

Poliqrafiya müəssisələrinin öz məhsulları ilə təmsil olunmasını diqqətə çatdıran nazir üç gün davam edəcək sərgi çərçivəsində bir sıra kitab təqdimatlarının, “dəyirmi masa”ların, müzakirələrin aparılacağını bildirib.

Sərgi ilə bağlı təəssüratlarını bölüşən Azərbaycan Respublikası Baş Nazirinin müavini, Yeni Azərbaycan Partiyası sədrinin müavini-icra katibi Əli Əhmədov bütün oxucuları kitab bayramı münasibətilə təbrik edib. Bildirib ki, Azərbaycanda belə sərgi-yarmarkaların keçirilməsi artıq bir ənənə halını alıb. Kitabın bəşəri dəyər olduğunu qeyd edən Baş Nazirin müavini belə sərginin ölkəmizdə keçirilməsini yüksək qiymətləndirib. Vurğulayıb ki, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində beynəlxalq kitab sərgiləri, eyni zamanda, digər beynəlxalq tədbirlər ölkəmizdə yüksək səviyyədə keçirilir.

Gələcəkdə bu yöndə daha da böyük işlər görüləcəyinə əminliyini ifadə edən Əli Əhmədov bildirib ki, iştirakçılar builki yarmarkada da sərgilənən kitablar vasitəsilə Azərbaycan xalqının tarixi, mədəniyyəti, ədəbiyyatı və bugünkü inkişaf səviyyəsi haqqında dolğun məlumat əldə edə biləcəklər.

“Bu sərgi-yarmarka hər şeydən əvvəl Azərbaycanda kitabın təbliğatı üçün həyata keçirilən əzəmətli bir təşəbbüsdür. Kitab bilik, mədəniyyət, cəmiyyətin inkişafı deməkdir. Bütövlükdə cəmiyyətin mədəni, intellektual, iqtisadi inkişafı öz başlanğıcını kitablardan götürür. Azərbaycanda qədimdən elmə, biliyə böyük önəm verilib. Bu həvəsin həyata keçirilməsində kitab misilsiz rol oynayıb. Bu gün Azərbaycan böyük intellektual sərvəti olan bir ölkədir. Biz bugünümüzü və gələcəyimizi də bu sərvətdən ayrıca təsəvvür etmirik. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, insan kapitalının inkişafı Azərbaycanın yüksəlişinin, tərəqqisinin əsas bünövrəsidir. Sevindirici haldır ki, Azərbaycanda həmişə kitaba hörmət və məhəbbətlə yanaşılıb. Güman edirəm ki, bu sərginin altıncı dəfə keçirilməsi də kitaba olan məhəbbətin ifadəsidir. Gənclərimiz mütaliə etməklə zəngin biliklər əldə edəcəklər, intellektual, mədəni səviyyələri yüksələcək və gələcəkdə ölkəmizin inkişafı naminə xidmətlər göstərmək qüdrətində olan layiqli vətəndaşlara çevriləcəklər. Gənc nəslin kitaba, biliklərə məhəbbətini daha da gücləndirməklə cəmiyyətimizi daim irəli apara biləcəyik. Bu mənada Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban Əliyevanın həyata keçirdiyi layihələr böyük rol oynayır. Bu layihələrdə iştirak etməklə böyüyən nəslə kitaba və kitab vasitəsilə biliklərə, mədəniyyətə, dərin mənəviyyata, əxlaqa möhkəm hörmət və ehtiram sərgiləmiş olacağıq”, - deyə Baş Nazirin müavini vurğulayıb.

Sonra qonaqlar sərgi ilə yaxından tanış olublar.

“Təhsil”, “Şərq-Qərb”, “Adiloğlu”, “Yazıçı”, “Əli və Nino”, “Apostrof”, “Letterpress” və digər poliqrafiya müəssisələrinin son çap məhsullarının sərgiləndiyi bu yarmarkada Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) də ayrıca stendlə təmsil olunur. AZƏRTAC-ın iştirakçılara təqdim etdiyi nəşrlər sırasında son vaxtlar agentlik tərəfindən buraxılmış “İnformasiya yaradıcılığı, standartlar və yeni yanaşmalar”, “Müasir dünyanın informasiya şəbəkəsində AZƏRTAC-ın yeri: təşəkkül tarixi və inkişaf mərhələləri”, “Keçid cəmiyyətində demokratiya”, “Sivilizasiyaların dialoqu: siyasi partiyaların rolu”, “20 Yanvar: tariximizin qanlı və şanlı səhifəsi”, “Dövlət siyasətinin informasiya təminatı”, “Türkdilli agentliklərin Bakı görüşü” və digər kitablar sərginin ziyarətçilərində daha böyük maraq doğurub.

Sərgidə, həmçinin İranlı Mühacirlər Cəmiyyəti öz stendləri ilə çıxış ediblər.

Qeyd edək ki, sərgi sentyabrın 29-dək davam edəcək.

# BMT-nin Əhali Fondunun Azərbaycanda fəaliyyətinin 25 illiyi münasibətilə qəbul keçirilib





Sentyabrın 27-də BMT-nin Əhali Fondunun Azərbaycan üzrə nümayəndəliyi fəaliyyətə başlamasının 25 illiyi münasibətilə rəsmi qəbul təşkil edib.

AZƏRTAC xəbər verir ki, qəbulda BMT-nin Əhali Fondunun ötən dövr ərzində ölkədə fəaliyyətinə dəstək olmuş və mühüm töhfələr vermiş tərəfdaşları - rəsmi şəxslər, ölkəmizdəki diplomatik korpusun təmsilçiləri, iş adamları, ictimai xadimlər, vətəndaş cəmiyyəti və mətbuat nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Baş Nazirin müavini Əli Əhmədov qeyd edib ki, Azərbaycan hökuməti BMT-nin Əhali Fondu ilə çox sıx və səmərəli əməkdaşlıq edir. Təşkilatın Azərbaycan hökumətinə demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində dəstək verdiyini qeyd edən Baş Nazirin müavini hökumətin dəlillərə əsaslanan etibarlı məlumatlarla təmin olunması baxımından fondun fəaliyyətini yüksək qiymətləndirib.

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai qeyd edib ki, ölkəmizdə fəaliyyət göstərdiyi 25 il ərzində təşkilat hökumətdən, özəl və ictimai sektordan olan tərəfdaşları ilə birgə əməkdaşlıq şəraitində müxtəlif uğurlu layihələr və tədbirlər həyata keçirib.

BMT-nin Əhali Fondunun Azərbaycan üzrə direktoru Karl Kulessa 25 il əvvəl Qahirədə Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransda (ICPD) qəbul edilmiş Fəaliyyət Proqramının əhəmiyyətindən danışıb. O, bu ilin noyabrında Keniyanın paytaxtı Nayrobidə təşkil ediləcək “ICPD-25” Sammiti haqqında məlumat verərək həmin proqramın hədəflərinə nail olmaq məqsədilə qlobal miqyasda və ölkə səviyyəsində bütün maraqlı tərəfləri daha sıx əməkdaşlığa çağırıb.

Tədbirdə BMT-nin Əhali Fondunun Azərbaycan nümayəndəliyi tərəfindən səmərəli və məhsuldar əməkdaşlığa görə fərqlənənlərə xüsusi təşəkkür elan edilib.

# *Etibar NƏCƏFOV:* “Azərbaycanda multikulturalizm siyasəti cəmiyyətdə sosial ədalətin və bərabərliyin bərqərar olmasının əsas amillərindəndir”

Parisdə İnsan Hüquqları üzrə Milli Məsləhət Komissiyasının baş qərargahında Fransanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi çərçivəsində İrqçilik və Dözümsüzlüyə qarşı Avropa Komissiyasının (ECRI) 25-ci ildönümünə həsr olunan “Səmərəli bərabərliyə aparan yolda: irqçilik və dözümsüzlüyə yeni cavablara ehtiyac varmı?” mövzusunda konfrans keçirilib.



AZƏRTAC xəbər verir ki, yüksək rütbəli hökumət rəsmilərinin, beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdikləri konfransda Avropa Şurasına üzv ölkələrdə irqçilik və dözümsüzlüyün artmasında mövcud və yeni çağırışların qarşısının alınması məsələləri müzakirə olunub.

Konfransda ölkəmizi Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov təmsil edib. O, “25 ildən sonra reallığa baxış: biz bərabərlik uğrunda aparılan mübarizədə uduruq, yoxsa uduzuruq” adlı sessiyada çıxış edərək, Azərbaycanın timsalında inklüziv cəmiyyətin qurulmasına nail olmağın səmərəli vasitəsi kimi multikulturalizm siyasətinin əhəmiyyətindən danışıb.

E.Nəcəfov ölkəmizin təcrübəsinə əsaslanaraq bildirib ki, multikulturalizm siyasəti cəmiyyətdəki etnik, dini və mədəni müxtəlifliklərin tənzimlənməsinin ən uğurlu modelidir. Multikulturalizm siyasəti qloballaşma şəraitində geniş vüsət alan etnik-mədəni müxtəlifliklərin və onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasına yönəlib. Bu, mədəniyyətin ictimai inkişafda aparıcı rol oynadığı bir dövrdə olduqca önəmlidir. Belə bir şəraitdə insanların dünyagörüşünün, fəaliyyətlərinin əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunması cəmiyyətin inklüzivliyini artıraraq onun daxilində inteqrasiya prosesləri üçün əlverişli şərait yaradır.

Şöbə müdiri multikulturalizmin Azərbaycan Respublikasının həm daxili, həm də xarici siyasətində özünü büruzə verdiyini qeyd edib. E.Nəcəfov bildirib ki, ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyəsi və ölkədə yaşayan bütün xalqların və etnik qrupların etnik-mədəni dəyərlərinin qorunması multikulturalizm və daxili siyasətin tərkib hissəsi olmasının təzahürləridir. Qeyd edib ki, sosial ədalətə və bərabərliyə əsaslanan multikulturalizm siyasəti inklüziv cəmiyyətin formalaşmasına aparan əsas amillərdən biridir.

# Azərbaycanla Avropa İttifaqının əməkdaşlığının genişləndirilməsi müzakirə olunub

Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında əməkdaşlığın genişləndirilməsi müzakirə edilib.



İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Avropa İttifaqının Azərbaycan nümayəndəliyinin rəhbəri Kestutis Yankauskasla görüşdə İqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizin Aİ ilə əməkdaşlığa önəm verdiyini, iqtisadi əlaqələrin inkişaf etdiyini vurğulayıb.

K.Yankauskas əlaqələrin genişlənməsi üçün qarşılıqlı marağı qeyd edərək əməkdaşlığın inkişafına dair fikirlərini bölüşüb.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın genişləndirilməsi və bu istiqamətdə həyata keçirilə biləcək layihələr barədə fikir mübadiləsi aparılıb.

# Bakıda Almaniya-Azərbaycan biznes forumu keçirilib

Sentyabrın 27-də Bakıda sənayenin və infrastrukturun modernləşdirilməsi üzrə Almaniya-Azərbaycan biznes forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, forum Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) tərəfindən Almaniyanın Şərq Komitəsi və Şərqi Avropa İqtisadi Birliyi ilə əməkdaşlıq çərçivəsində təşkil edilib. Builki forumun əsas mövzuları maliyyə və biznes mühiti, nəqliyyat və infrastruktur və kənd təsərrüfatı, qida sənayesi olub.

“AHK Azərbaycan”ın icraçı direktoru Tobias Baumann ənənəvi keçirilən biznes forumunun əhəmiyyəti barədə danışıb. Bildirib ki, biznes forumunun məqsədi alman və Azərbaycan şirkətlərini biznes platforması ilə təmin etmək, onların yeni işgüzar əməkdaşlıq üçün mövcud imkanları müzakirə etməsi və öz layihə və təkliflərini təqdim etməsinə şərait yaratmaqdır.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərov sənayenin modernləşdirilməsi, qeyri-neft sektorunun şaxələndirilməsi, Azərbaycanda biznes və investisiya mühitinin inkişaf etdirilməsi məqsədilə həyata keçirilən sistematik tədbirlərdən danışıb. O, davamlı iqtisadi inkişafı rəqabətqabiliyyətli iqtisadiyyatın və məşğulluğun təmin olunması, ixrac potensialının gücləndirilməsi və sahibkarlığın inkişafının dövlət siyasətinin əsas hədəflərindən biri olduğunu deyib.

Almaniya və Azərbaycan arasında ikitərəfli siyasi və iqtisadi münasibətlərin inkişafı haqqında danışan N.Səfərov bu ilin 7 ayı ərzində iki ölkənin ticarət dövriyyəsinin 1 milyard ABŞ dollarından çox olduğunu vurğulayıb. Almaniyanın Azərbaycanda həyata keçirilən Tvininq layihələrinə böyük maraq göstərdiyini qeyd edən nazir müavini dövlət orqanları tərəfindən həyata keçirilən və əsasən energetika, kənd təsərrüfatı, statistika, standartlaşma, insan hüquqları kimi sahələri əhatə edən Tvininq tenderlərinin əksəriyyətində alman nümayəndələrinin iştirak etdiyini deyib.






“AHK Azərbaycan”ın Almaniyanın xarici iqtisadi siyasətində çox vacib bir platforma olduğunu vurğulayan Almaniyanın ölkəmizdəki səfiri Volfqanq Maniq yüksək səviyyəli tərəfdaşların bir araya gətirilməsində və alman şirkətlərinin Azərbaycan bazarı haqqında məlumatlılığının artırılması və yeni əməkdaşlığın yaradılması üçün nümayəndə heyətlərinin səfərlərinin təşkilində Alman-Azərbaycan Xarici Ticarət Palatasının rolunu qeyd edib. Səfir bildirib ki, Azərbaycanın hüquqi əsaslarla beynəlxalq iqtisadi sistemə söykənən müasir və qloballaşan iqtisadiyyata doğru addımlamasında Almaniya hər zaman öz dəstəyini göstərməyə hazırdır.

Alman-Azərbaycan Xarici Ticarət Palatasının vitse-prezidenti Fərid İsayev “AHK Azərbaycan” tərəfindən təşkil olunan tədbirlərin və forumların ölkələrimiz arasında ikitərəfli münasibətlərə və iqtisadi əməkdaşlığa verdiyi töhfədən bəhs edərək palatanın dövlət-özəl sektorları arasında əlaqələrin gücləndirilməsindəki mühüm rolunu vurğulayıb.

Biznes forumu maliyyə və biznes mühitinə həsr olunan plenar sessiya ilə davam edib.

Maliyyə Bazarlarına Nəzarət Palatasının idarə heyətinin sədri vəzifəsini icra edən İbrahim Alışov təmsil etdiyi qurum tərəfindən biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər, maliyyə sektorundakı perspektivlər və xarici qurumların da dəstəyi ilə palatanın yaxın gələcəkdə həyata keçirəcəyi tədbirlər haqqında iştirakçıları məlumatlandırıb.

“AccessBank” ASC-nin idarə heyətinin sədri və baş icraçı direktoru Anar Həsənov, “Bayerische Landesbank”ın Rusiya və MDB dövlətləri ilə əlaqələr üzrə baş meneceri Helmut Mader, Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycandakı nümayəndəliyinin rəhbəri İvana Duarte və “Ekvita LLC” şirkətinin direktoru İlqar Mehdi maliyyə və bank sektorunun inkişafı barədə fikirlərini bölüşüblər.

Azərbaycanda maliyyə və biznes mühiti barədə impuls bölümündən əlavə iqtisadi islahatların aparıcı qüvvəsi kimi nəqliyyat və infrastruktur, eləcə də kənd təsərrüfatı və qida sənayesində paralel müzakirələr builki forumun gündəliyini təşkil edib.

Tədbirdə müvafiq dövlət qurumlarından, yerli və alman şirkətlərindən 300-dək nümayəndə iştirak edib.

# Xarici İşlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının 74-cü sessiyası çərçivəsində bir sıra görüşlər keçirib

Xarici İşlər naziri Elmar Məmmədyarov Rumıniyanın Xarici İşlər naziri Ramona Nikol Manesku ilə görüşüb.

Nazirlər Azərbaycan və Rumıniya arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə ediblər. Ölkələr arasında siyasi, iqtisadi, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün əlverişli imkanların olduğu qeyd olunub.

İkitərəfli əməkdaşlığın daha da inkişafında yüksək səviyyəli səfərlər mübadiləsinin əhəmiyyəti vurğulanıb.

Bölgədə Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən böyük enerji və nəqliyyat layihələri üzrə fikir mübadiləsi aparılıb və enerji sahəsində əməkdaşlığın inkişaf etdirilməsi yolları müzakirə edilib.

Nazir Elmar Məmmədyarov Qoşulmama Hərəkatının növbəti zirvə görüşünün Bakıda keçiriləcəyi və Azərbaycanın bu hərəkatda sədrliyi barədə rumıniyalı həmkarına məlumat verib.

Tərəflər həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran regional təhlükəsizlik məsələləri üzrə fikir mübadiləsi aparıb.

* * *

Elmar Məmmədyarov Beynəlxalq Böhran Qrupunun prezidenti Robert Maley ilə görüşüb.

Görüş zamanı tərəflər bölgədəki təhlükəsizlik vəziyyəti ətrafında fikir mübadiləsi apardılar.

Xarici İşlər naziri Elmar Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesi, Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə iki ölkənin xarici işlər nazirlərinin ən son görüşü haqqında R.Maleyə məlumat verib. Münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, Helsinki Yekun Aktı, beynəlxalq təşkilatların, ilk növbədə isə BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında dövlətlərin beynəlxalq sərhədlərinin toxunulmazlığı və ərazi bütövlüyü çərçivəsində həllinin, hərbi işğal amilinin aradan qaldırılmasının və məcburi köçkünlərin öz evlərinə geri qayıtmasının zəruriliyi vurğulanıb.

* * *

Xarici İşlər naziri Elmar Məmmədyarov Ərəb Dövlətləri Liqasının (ƏDL) Baş katibi Əhməd Abul Qeyt ilə görüşüb.

Görüşdə Azərbaycan və Ərəb Dövlətləri Liqası arasında mövcud əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə edilib və əməkdaşlığın bir çox sahələrdə daha da dərinləşməsi üçün birgə səylərin intensivləşdirilməsinin vacibliyi vurğulanıb.

Tərəflər Qoşulmama Hərəkatının qarşıdan gələn Bakı Sammiti və Azərbaycanın Hərəkatda sədrliyi məsələlərini müzakirə ediblər.

Görüş əsnasında həmçinin regional təhlükəsizlik gündəliyində duran bir sıra məsələlər, o cümlədən qarşılıqlı maraq doğuran digər mövzular ətrafında müzakirələr aparılıb.

* * *

Elmar Məmmədyarov Çilinin Xarici İşlər naziri Teodor Ribera ilə görüşüb.

Görüşdə nazirlər iki ölkə arasında müxtəlif səviyyələrdə təmasların genişləndirilməsi və siyasi dialoqun davamlı şəkildə aparılması məqsədilə yüksək səviyyəli qarşılıqlı səfərlərin intensivləşdirilməsinin əhəmiyyətini vurğulayıblar.

Qoşulmama Hərəkatının qarşıdan gələn Bakı zirvə görüşündə iştirak, yüksək səviyyəli tədbirə hazırlıq işləri, eləcə də Azərbaycanın Hərəkatda sədrlik prioritetləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Nazirlər ikitərəfli əlaqələrin inkişafı perspektivləri, xüsusilə də iqtisadi sahədə əməkdaşlığın genişləndirilməsi imkanlarını müzakirə ediblər, habelə beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətini qeyd ediblər.

Həmçinin beynəlxalq gündəlikdəki aktual məsələlər, o cümlədən müvafiq olaraq regionlardakı vəziyyət barədə fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

## *Azərbaycanın Xarici İşlər Nazirliyi:*

# "Lyon məhkəməsinin qərarını alqışlayırıq"

Xarici İşlər Nazirliyi Fransa Respublikasının Lion/Lyon inzibati məhkəməsinin bu ölkənin Desin-Şarpyö/Decines-Charpieu şəhəri ilə Azərbaycanın işğal olunmuş Xocavənd rayonunun inzibati bölgələrindən biri və Sen-Etyen/Saint-Etienne şəhəri ilə Azərbaycanın işğal olunmuş Şuşa şəhəri arasında müvafiq olaraq 2017-ci il sentyabrın 25-də və 2018-ci il oktyabrın 21-də imzalanan qeyri-qanuni "saziş"lərin ləğv olunmasına dair cari ilin 19 sentyabr tarixli qərarını alqışlayır.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin məlumatında qeyd olunur.

Məlumatda deyilir: "Xatırladırıq ki, sözügedən qeyri-qanuni "sənədlər" Azərbaycan və Fransanın milli qanunvericiliyi, xüsusilə də Fransa Konstitusiyasının 73-cü maddəsi, "Ərazi Vahidləri Ümumi Məcəlləsi"nin maddələri və 2018-ci il 24 may tarixində daxili işlər və Avropa və xarici işlər nazirləri tərəfindən imzalanmış sirkulyar sənədin müddəalarına zidd olaraq imzalanıb.

Bugünədək Fransanın şəhərləri ilə Azərbaycanın işğal olunmuş ərazilərindəki qondarma rejim tərəfindən yaradılan "yerli hakimiyyət orqanları" arasında imzalanan 9 qanunsuz "müqavilə" Fransa Respublikasının müvafiq məhkəmə qərarları ilə ləğv olunub.

Azərbaycan tərəfi hazırda qüvvədə qalan digər qeyri-qanuni "sənədlərin" də tezliklə Fransa məhkəmələri tərəfindən ləğv ediləcəyinə ümid edir".

# Azərbaycan Respublikasının nümayəndə heyəti BMT Baş Assambleyasının 74-cü sessiyasında Ermənistan baş nazirinin cəfəng bəyanatlarına qətiyyətli cavab verib

Sentyabrın 26-da Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyinin müşaviri Tofiq Musayev BMT Baş Assambleyasının 74-cü sessiyasının ümumi siyasi debatlarında Ermənistanın baş naziri Nikol Paşinyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və Ermənistanın işğal etdiyi Azərbaycan torpaqları ilə bağlı bəyanatlarına cavab olaraq bəyanatla çıxış edib.

AZƏRTAC xəbər verir ki, diplomatlardan ibarət auditoriyanın diqqətini Paşinyanın cəfəng bəyanatlarına cəlb edən Tofiq Musayev rəsmi Yerevanın öz mülahizələri və faktları təhrif etməsi ilə dünya ictimaiyyətini aldatmağa çalışdığını qeyd edib.

Azərbaycan diplomatı bildirib ki, birincisi, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına bəraət qazandırmaq məqsədilə cidd-cəhdlə manipulyasiya etməyə çalışdığı tarix heç də onun tərəfində deyil. Hamıya məlumdur ki, ermənilərin Azərbaycanın Qarabağ bölgəsinə köçürülməsi (Ermənistanın baş naziri bu ərazini "atalarının vətəni" adlandırır) XIX əsrdə başlayıb. Ermənilərin Cənubi Qafqazda yerləşdirilməsi üzrə sonrakı proses və ərazi ekspansiyaları cəhdləri regionda uzunmüddətli qeyri-sabitliyin, gərginliyin və münaqişələrin bu gün də davam edən, azərbaycanlı əhalinin kütləvi qırğınları və zorla deportasiyası ilə müşayiət olunan təməlini qoydu.

İkincisi, Dağlıq Qarabağ regionunun zorakı yolla Ermənistana birləşdirilməsi və onun birtərəfli qaydada Azərbaycandan ayrılması istiqamətində sovet hüquq sistemi çərçivəsində edilən hər hansı cəhdlərin qanunsuz olması ən yüksək konstitusional səviyyədə təsdiq olunub. Bəllidir ki, müstəqilliyini əldə etdiyi məqamda və tətbiq edilən hüquq normalarının fonunda Azərbaycanın ərazilərinin müəyyən edilməsi, şübhəsiz ki, Dağlıq Qarabağ regionunu da əhatə edirdi.

Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra Ermənistanın sonrakı hərəkətləri də məlumdur. BMT Təhlükəsizlik Şurası özünün 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrində Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiqləyib və müəyyən edib ki, bununla bağlı Ermənistanın ərazi iddiaları və hərəkətləri qanunsuzdur və beynəlxalq münasibətlərdə silah gücü tətbiq edilməsinin qadağan olunması prinsipləri ilə bir araya sığmır. Digər beynəlxalq təşkilatların qəbul etdikləri çoxsaylı sənədlər də bunu əks etdirir. Xatırlatmaq yerinə düşərdi ki, Baş Assambleya "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlanan xüsusi maddəni də öz gündəliyində saxlayır.

Üçüncüsü, Ermənistan bilərəkdən millətlərin öz müqəddəratını həll etməsi prinsipini yanlış interpretasiya edir: bu yanaşmanın Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində, 1975-ci il tarixli Helsinki Yekun Aktında və digər beynəlxalq sənədlərdə təsbit olunmuş ümumi prinsiplərlə heç bir əlaqəsi yoxdur. Ermənistan baş nazirinin "müqəddəratı həll etmək" adlandırdığı müddəa isə Təhlükəsizlik Şurası tərəfindən qanunsuz güc tətbiqli kimi xarakterizə edilib. Əslində, Ermənistan tərəfindən təcavüz, işğal və etnik təmizləmə siyasəti nəticəsində məhz Azərbaycan xalqının öz müqəddəratını həll etmək hüququ pozulur.

Dördüncüsü insan haqları və əsas azadlıqları kimi ümumi dəyərlərdir və bütün bəşəriyyəti əhatə edir. Bu hüquqlara hörmət edilməsi bərabər əsasda və ayrı-seçkilik olmadan təmin olunmalıdır. Hamının qəbul etdiyi bu yanaşma tərzindən fərqli olaraq, Ermənistanın siyasəti və praktikası istisnalara və etnik əlamətlərə görə ayrı-seçkiliyə əsaslanır. Belə ki, Azərbaycan və regionun digər dövlətlərindən fərqli olaraq, Ermənistan monoetnik ölkədir. O, işğal etdiyi ərazilərdə etnik təmizləmə aparıb və indi hətta Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının da mövcudluğunu qəbul etməkdən imtina edir.

Bütün bunlar açıq-aydın qənaət hasil etməyə imkan verir ki, Ermənistan təməlində xüsusən istər Ermənistan, istərsə də Azərbaycanın işğal olunmuş ərazilərində daha çoxsaylı - sayı bir milyondan artıq olan və öz ev-eşiklərindən didərgin salınmış və qayıtmaq imkanı olmayan azərbaycanlı əhaliyə qarşı beynəlxalq humanitar hüquq və beynəlxalq insan haqları normalarının kobud şəkildə və sistematik pozulması, başqalarına münasibətdə hüquq və azadlıqların ayrı-seçkilik zəminində inkar edilməsi olan güzəştləri tələb edə bilməz.

Ermənistanın öz cinayətlərinə görə məsuliyyətdən imtina etməsi insan haqlarının pozulması və möhkəm sülh və həqiqi barışığa aparan yolda birbaşa maneədir.

Azərbaycan diplomatı qeyd edib ki, bu fonda Yerevanın insan haqları, demokratiya və "antierməni əhvali-ruhiyyəsi", həmçinin "antierməni nifrət ritorikası" barədə iddiaları ən azından məsuliyyətsiz və beynəlxalq ictimaiyyətin aldadılmasına yönəlmiş cəhdlərdir. Azərbaycanın guya insanlar olmayan ərazi tələb etməsini iddia edən Ermənistanın baş naziri sadəcə Azərbaycanın məqsədləri ilə bağlı öz təsəvvürlərini rəsmi Yerevanın real siyasəti ilə qarışdırır.

Beşincisi, Ermənistanın baş naziri öz çıxışında münaqişənin sülh yolu ilə nizamlanmasından və onun regionda sabitlik və təhlükəsizlik üçün əhəmiyyətindən səbirsizliklə danışıb. Lakin nizamlama prosesində, xüsusən Ermənistanın öhdəlikləri və əməlləri bu məqsədə nail olmaqla ziddiyyət təşkil etdiyi bir şəraitdə irəliləyiş əldə etmək üçün təkcə sözlə kifayətlənmək olmaz.

Ermənistanın davam edən təcavüzü, Təhlükəsizlik Şurasının qətnamələrinə və beynəlxalq hüquqa əməl olunmaması, təhrikedici bəyanatlar, yerlərdə müxtəlif təxribatlar və Azərbaycanın işğal olunmuş ərazilərində demoqrafik, iqtisadi, sosial və mədəni xarakterli dəyişikliklər etmək cəhdləri sülh yolu ilə nizamlanmaya nail olmaqla bir araya sığmır. Ən başlıcası, münaqişənin sülh yolu ilə nizama salınması Azərbaycan Konstitusiyasına zidd olduğu və beynəlxalq hüquq normalarına uyğun gəlmədiyi təqdirdə də mümkün deyil.

T.Musayev vurğulayıb ki, Təhlükəsizlik Şurasının yuxarıda göstərilən qətnamələri əsasında davam edən sülh prosesinin əsas məqsədi erməni silahlı qüvvələrinin tam, dərhal və qeyd-şərtsiz olaraq Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən və bütün digər işğal olunmuş ərazilərindən çıxarılması, Azərbaycanın ərazi bütövlüyünün onun beynəlxalq səviyyədə tanınmış sərhədləri hüdudlarında bərpa edilməsi və zorla öz evlərindən didərgin salınmış şəxslərin və onların əmlaklarının qaytarılmasıdır.

Azərbaycan ərazilərində qanunsuz güc tətbiq olunması və bununla əlaqədar hərbi təcavüz və etnik təmizləmə siyasəti münaqişənin həlli yolu deyil və heç vaxt sülh, barışıq və sabitlik gətirməyəcək.

T.Musayev çıxışının sonunda bəyan edib ki, Ermənistan beynəlxalq ictimaiyyəti və öz xalqını aldatmaq cəhdlərinə vaxt sərf etmək yerinə özünün dayanıqlı olmayan status-kvonu uzatmaq kimi faydasız cəhdlərindən imtina etməli və beynəlxalq öhdəliklərini vicdanla yerinə yetirməlidir. Yerevan öz dağıdıcı siyasi planının hər hansı perspektivinin olmadığını nə qədər tez dərk edərsə, iki xalq da sülhə nail olmaqdan, sabitliyin və əməkdaşlığın bərqərar olmasından o qədər tez faydalana biləcək.

## *Rusiyanın İdman naziri:* "Azərbaycan, sözün əsl mənasında, idman ölkəsinə çevrilib"

Sentyabrın 27-də Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov Rusiyanın İdman naziri Pavel Kolobkov ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə nazir Azad Rəhimov ötən ilin sentyabrında imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında idman sahəsində əməkdaşlıq haqqında" Sazişin uğurla həyata keçirildiyini, bu sənədin idmanın inkişafında müstəsna rol oynadığını diqqətə çatdırıb. Nazir bildirib ki, saziş ölkələrimizdə idmanın inkişafında, yeni idmançı nəslinin yetişməsində çox böyük rol oynayır. Azərbaycanda keçirilən beynəlxalq tədbirlərin, demək olar ki, hər birində Rusiya idmançıları fəal iştirak edir, yüksək pillələrə yüksəlirlər. Gələn ilin Olimpiya ili olacağını nəzərə alsaq, bizi daha məsuliyyətli və gərgin il gözləyir.

Yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən P.Kolobkov da 2018-ci ildə Soçidə imzalanmış sazişin əhəmiyyətindən və ötən ildə qarşılıqlı əməkdaşlıq sayəsində qazanılan uğurlardan söz açıb. Rusiyalı nazir vurğulayıb ki, 2020-ci ilin avqustunda Kazanda ilk dəfə olaraq MDB ölkələrinin idman yarışları keçiriləcək. Gənclər arasında baş tutacaq bu yarışa 2 mindən çox qonaq qatılacaq.

P.Kolobkov deyib: "Azərbaycan, sözün əsl mənasında, idman ölkəsinə çevrilib. İstər idman infrastrukturu, istərsə də, idman yarışlarının təşkili ən yüksək səviyyədədir. Əminik ki, 2020-ci ildə ilk dəfə Kazanda keçiriləcək MDB ölkələrinin idman yarışları azarkeşlərin yaddaşında uzun müddət qalacaq. Əgər 2022-ci ildə baş tutacaq növbəti yarışa evsahibliyi hüququ Azərbaycana düşərsə, həmin turnirin yüksək səviyyədə təşkil olunacağını indidən deyə bilərik. Hazırda əsas məqsədlərdən biri MDB ölkələrinin idman yarışlarının keçirilməsində xüsusi komandanın qurulması və tədbirlər planının işlənib hazırlanmasıdır".

Görüşün sonunda P.Kolobkov Azərbaycanın Gənclər və İdman naziri A.Rəhimovu oktyabrın 10-11-də Rusiyanın Nijni-Novqorod şəhərində gerçəkləşəcək "Rusiya idman ölkəsi" beynəlxalq idman forumuna dəvət edib.

# Azərbaycanın Gənclər və İdman naziri Dünya Kikboksinq Assosiasiyası Təşkilatının prezidenti ilə görüşüb

Ölkəmizdə səfərdə olan Dünya Kikboksinq Assosiasiyası Təşkilatının (WAKO) prezidenti Roy Beyker sentyabrın 27-də Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, A.Rəhimov görüşdə ölkəmizdə idmanın kütləviliyinin artırılması istiqamətində həyata keçirilən layihələr barədə məlumat verib. Nazir Azərbaycanda kikboksinqə böyük marağın olduğunu və gənclər arasında çox populyarlaşdığını qeyd edib.

Bildirib ki, ölkəmizdə Olimpiya idman növləri ilə yanaşı, qeyri-Olimpiya idman növlərinə də böyük diqqət göstərilir. Kikboksinq də həmin idman növlərindən biridir. Ölkəmiz həmişə irimiqyaslı yarışlara yüksək səviyyədə evsahibliyi edib. İdman infrastrukturunun təkmilləşdirilməsi ən prioritet məsələlərdən biridir. Bütün bunlar ölkəmizdə həyata keçirilən uğurlu idman siyasətinin nəticəsində gerçəkləşib. Dövlət başçısı İlham Əliyev həmişə idmançıların yanında olub, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mütərəqqi addımlar atır.

R.Beyker qeyd edib ki, Azərbaycan mötəbər yarışlara yüksək səviyyədə evsahibliyi bacarığı ilə həmişə seçilir. Hazırda kikboksinqin 2023-cü ildə Polşanın Krakov şəhərində keçiriləcək III Avropa Oyunlarının proqramına salınmasına dair Avropa Olimpiya Komitəsi ilə danışıqlar aparılır.

Bakının 2015-ci ildə yüksək səviyyədə evsahibliyi etdiyi I Avropa Oyunlarının möhtəşəm açılış və bağlanış mərasimlərinin uzun müddət yaddaşlarda qaldığını vurğulayan qonaq deyib ki, əldə etdiyiniz uğurlar Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasına imkanlar açır.

Sonra qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparılıb.

# "Qafqaz Qartalı - 2019" təliminin növbəti mərhələsi icra olunub



Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə keçirilən "Qafqaz Qartalı - 2019" təliminin növbəti mərhələsi icra olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu mərhələdə xüsusi təyinatlılar terrorçular olan binanın həmlə ilə zəbt edilməsi, eləcə də şərti düşmənin hava hücumundan müdafiə vasitələrinin sıradan çıxarılması üzrə tapşırıqları yerinə yetiriblər. Fəaliyyətlər aviasiyanın dəstəyi ilə həyata keçirilib.

# Lyon məhkəməsi qondarma Dağlıq Qarabağ rejimi ilə imzalanmış daha iki "dostluq xartiyası"nı ləğv edib

Lyon İnzibati Məhkəməsi Sent-Etyen və Desin-Şarpyö şəhərləri ilə Azərbaycanın 25 ildən artıq işğal altında olan ərazilərindəki inzibati bölgələr arasında imzalanmış iki "xartiya"nı ləğv edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Lyon İnzibati Məhkəməsinin saytında məlumat yerləşdirilib.

Məlumatda bildirilib ki, 2018-ci il oktyabrın 21-də Sent-Etyen və Şuşa, eləcə də 2017-ci il sentyabrın 25-də Desin-Şarpyö və Çartar şəhərləri arasında imzalanmış "dostluq xartiyaları" Luar (Loire) və Ron (Rhone) prefekturaları tərəfindən ləğv olunub.

Məhkəmə hesab edib ki, aidiyyəti şəhərlər arasında münasibətlərin inkişafını nəzərdə tutan "dostluq xartiyaları" əməkdaşlıq fəaliyyətindən ibarətdir. Buna görə də Fransanın beynəlxalq öhdəliklərinə riayət edilməsi baxımından bu "xartiyalar" imzalana bilməz.

Hakimlər bildiriblər ki, Fransa ATƏT-in Minsk qrupu çərçivəsində Dağlıq Qarabağı tanımamaq öhdəliyi götürüb. Buna görə də həmin öhdəlik Fransa hakim dairələrindən bu münaqişə ilə bağlı neytral mövqe tələb edir. Nəticədə Fransa kommunalarının merləri Fransanın beynəlxalq öhdəliklərini bilmədən bu "dostluq xartiyaları"nı imzalayıblar.

Məhkəmə bu "xartiyalar"ın ləğv olunması ilə bağlı qərar qəbul edib.

# Paşinyan danışıqlar prosesinə zərbə vurur

## Ermənistanın baş nazirinin sərsəm bəyanatları Yerevan üçün yeni problemlər yaradır

*Əvvəli 1-ci səh.*

"ATƏT-in Minsk qrupunun ABŞ-dan olan keçmiş həmsədri Metyu Brayza bildirmişdi ki, Paşinyanın "Qarabağ Ermənistandır" söyləməsi münaqişənin həlli ilə bağlı aparılan danışıqlara son deməkdir. Paşinyanın Metyu Brayzaya bu fikirlərinə görə irad bildirməsi Ermənistanın təcavüzkar siyasət yürütdüyünü nümayiş etdirir. Paşinyan bildirir ki, ilk erməni lideri olaraq münaqişənin həm Ermənistan, həm Dağlıq Qarabağ, həm də Azərbaycan üçün məqbul olan həll variantına tərəfdardır. O bununla Dağlıq Qarabağın azərbaycanlı icmasını görməməzlikdən gəlməklə, münaqişənin həllinə qarşı olduğunu gizlətmir".

Paşinyanın reallıqdan tamamən uzaq olan populist bəyanatlar səsləndirməsi onun bölgədə və ümumiyyətlə, dünyada baş verənlərdən xəbərsiz və nə dərəcədə aciz birisi olduğunu nümayiş etdirir. Bununla yanaşı, onun bu cür davranışı danışıqlar prosesinə böyük zərbə vurur. Ona görə beynəlxalq ictimaiyyət Ermənistana özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli, bu ölkənin rəsmilərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü kobud surətdə pozan məsuliyyətsiz bəyanatlarını və addımlarını pisləməli, onları bu yoldan çəkindirməli, münaqişənin sülh yolu ilə BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələr əsasında həlli üzrə danışıqlar prosesinə məcbur etməlidir. Ermənistanın özünü beynəlxalq ictimaiyyətə "demokratik ölkə" kimi sırımasının heç bir əsası yoxdur. Demokratik ölkə işğal və etnik təmizləmə aparmır, dünyanın ən ali beynəlxalq qurumu olan BMT Təhlükəsizlik Şurasının qətnamələrini qulaqardına vurmur.

Eyni zamanda Ermənistan ATƏT-in Minsk qrupunun vasitəçiliyi altında ciddi danışıqlar aparmaq əvəzinə Azərbaycanın səbrindən və münaqişənin dinc yolla həlli ilə bağlı üzərinə götürdüyü öhdəliyindən sui-istifadə edir. Ermənistan bütün mümkün vasitələrlə danışıqlar prosesini bloklayır, münaqişənin həllindən yayınır və işğalı, etnik təmizləmənin nəticələrini davam etdirmək, status-kvonu saxlamaq üçün vaxt qazanmağa çalışır.

Paşinyanın sərsəm bəyanatları fonunda Ermənistanda əhali ağır sosial-iqtisadi problemlərlə boğuşmaqdadır. Bunun nəticəsi olaraq son vaxtlar işğalçı ölkədə müşahidə olunan hallardan biri də yenidən çoxsaylı etiraz aksiyalarının başlanmasıdır. Görünən budur ki, ölkə vətəndaşları artıq maddi-sosial durumlarının nə vaxtsa yaxşılaşacağına dair olan ümidlərini tam itirmək üzrədirlər. Xüsusən də yeni iş yerlərinin açılması əvəzinə köhnələrinin bağlanması vəziyyəti daha da ağırlaşdırır. Ermənistanda "Sanitek" şirkətinin əməkdaşları Yerevan meriyasının binası qarşısında etiraz aksiyası keçirib. Onlar maaşlarının ödənilməsini tələb ediblər. Şəhər hökumətinin nümayəndəsi ötən aksiyada etirazçılara şirkətin hesabına 140 milyon dram köçürüldüyünü bildirmişdi. Ancaq "Sanitek"dən maliyyə vəsaitinin köçürülmədiyini vurğulayıblar. Qeyd edək ki, Yerevan küçələrinin və dövlət binalarının təmizliyi ilə məşğul olan şirkətin işçilərinin maaşlarının ödənilməsi Ermənistan hökuməti üçün problemlərdən biri olaraq qalır.

Bu günlərdə daha bir qrup vətəndaş Yerevanda Ermənistanın hökumət binası önünə toplaşaraq etiraz aksiyası keçirib. Etirazçılar ötən ilin sonunda dövlət qulluqçularına verilən böyük məbləğdə əlavə pul mükafatlarının Ermənistanın dövlət büdcəsinə geri qaytarılmasını tələb edirlər. Aksiyaçılar həmçinin bir həftə ərzində 4 min imza topladıqlarını və bu təşəbbüsə qoşulanların sayının durmadan artdığını bildiriblər. Onların sözlərinə görə, dövlət işçilərinə maaşlarından əlavə pul verilməsi korrupsiya əməlidir və bütün vəsaitlər büdcəyə qaytarılmalıdır. Aksiya iştirakçılarından biri qeyd edib: "Biz icazə verməyəcəyik ki, əvvəlki hakimiyyət nümayəndələrinin etdikləri kimi, vəzifəli şəxslər öz burunlarını dövlət büdcəsinə soxsunlar. Bu insanlar əlavə 8-9 milyon dram pul alırlar və deyirlər ki, guya bunu qanuna uyğun olaraq edirlər".

Bütün bunlar qarşıdakı dövr ərzində Ermənistanı heç də sakit günlərin gözləmədiyini deməyə əsas verir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

*Əvvəli 1-ci səh.*

Bununla əlaqədar, aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi üçün müvafiq təşviq mexanizmləri formalaşdırılacaq, maliyyə dəstəyi və subsidiyalar ayrılacaq.

2020-ci ilin xərc siyasətinin əsas istiqamətlərindən biri səhiyyə sahəsində islahatların dəstəklənməsi olacaq. Belə ki, 2020-ci ildən başlayaraq ilk dəfə olaraq bütün ölkə ərazisində icbari tibbi sığortanın tətbiqi planlaşdırılır. Bu məqsədlə dövlət büdcəsində 902,9 milyon manat (2019-cu ildə 223,5 milyon manat) maliyyə vəsaiti nəzərdə tutulub.

2020-ci il və orta müddətli dövrdə nəqliyyat, kommunal infrastruktur, melioriasiya, sənaye və energetika, kənd təsərrüfatı kimi prioritet sahələrdə infrastruktur layihələrinin dəstəklənməsi, habelə təhsil, səhiyyə, idman, mədəniyyət obyektlərinin, əlil və şəhid ailələri üçün evlərin tikintisi dövlət əsaslı vəsait qoyuluşunun prioritet istiqamətlərindən olacaq.

Gələn il Dövlət Neft Fondundan büdcəyə 11767,5 milyon manat vəsaitin transfert edilməsi nəzərdə tutulub ki, bu da 2019-cu illə müqayisədə 403 milyon manat çoxdur. Bütövlükdə 2020-ci ilin dövlət büdcəsinin gəlirlərinin 43 faizi (10536,5 milyon manat) qeyri-neft sektorunun, 57 faizi (13947,5 milyon manat) neft sektorunun payına düşəcək.

## Tarixi rekord



Gələn ilin büdcə xərclərinin 40,7 faizinin sosial məsələlərə yönəlməsi dövlətin iqtisadi konstitusiyasının sosialyönümlülüyünü bir daha təsdiqləyir

### Prezident qayğısının real təzahürü

Göründüyü kimi, növbəti ilin büdcəsi də sösialyönümlüdür. Bu bir həqiqətdir ki, son 16 il ərzində Prezident İlham Əliyev sosial siyasət və sosial müdafiə sistemində dünyaya nümunə olacaq ardıcıl və sistemli yeniliklər həyata keçirib. Proqramlarla idarəetmə, regional inkişaf, qabaqlayıcı tədbirlər, ünvanlılıq və şəffaflıq ideyaları bu fəaliyyətin təməl prinsiplərindən olub.

Ümumiyyətlə, 2008-ci ildən başlayaraq dünyada gedən bütün iqtisadi və sosial kataklizmlərə baxmayaraq ötən müddətdə ölkəmizin dövlət büdcəsi daim sosialyönümlü olub. Prezident İlham Əliyevin siyasətinin ana xəttinin sosialyönümlü olması 2018-2019-cu illərdə həyata keçirilən inqilabi islahatlarda da bir daha özünü göstərdi. Həyata keçirilən islahatlar ümumilikdə 4,2 milyondan çox insanın yaşayışına müsbət təsir etdi. Onu da vurğulayaq ki, ilk dəfə olaraq Azərbaycanda 8 ayda 2 dəfə minimum əmək haqqı və minimum pensiyalarda artım olub. İlk dəfə olaraq minimum əməkhaqqı yaşayış minimumunu üstələyib. Bütün bunlar əhalinin rifah halının yaxşılaşdırılmasına xidmət edən Prezident qayğısının real təzahürüdür.

### Xarici və daxili investorlar üçün əlverişli biznes mühiti

Bütün bunlar onu deməyə əsas verir ki, 2020-ci ildə də makroiqtisadi sabitliyi qorumaqla iqtisadi artımın davam etdirilməsi aparılacaq iqtisadi siyasətin əsas məqsədlərindən olacaq. Bir tərəfdən artmaqda davam edən neft gəlirlərindən optimal istifadə və büdcə dayanıqlılığının təmin edilməsi, digər tərəfdən isə iqtisadi artım üçün münbit şəraitin formalaşdırılması iqtisadiyyata investisiyaların cəlbini artıracaq. Bu mənada xarici və daxili investorlar üçün əlverişli biznes mühitinin yaradılması, biznesin vergi yükünün optimallaşdırılması, maliyyə-bank sektoru tərəfindən sahibkarlara kredit dəstəyinin verilməsi xüsusi əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin bilavasitə tapşırığı ilə biznes mühitinin yaxşılaşdırılması istiqamətində son illərdə həyata keçirilmiş tədbirlər Dünya Bankının "Doing Business 2019" hesabatında yüksək qiymətləndirilib. Belə ki, Azərbaycan dünyada ən islahatçı ölkə kimi tanınaraq 190 ölkə arasında 25-ci yerə yüksəlib.

Əlbəttə, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil cənab İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Bugünün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yol tutaraq gələcəyə doğru inamla addımlayır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Küçələr genişləndirilir, avtobuslar təzələnir

Sumqayıtda həyata keçirilən layihələr xususi proqram əsasında aparılır, o cümlədən yol infrastrukturu. Şəhərin əsas giriş qapısı sayılan Sülh küçəsi xeyli genişləndirilib, hər iki tərəfdə su, kanalizasiya, kommunikasiya xətləri çəkilib. Əraziyə yaşıl örtük salınıb, 130 minə yaxın ağac və dekorativ kollar əkilib.



Heydər Əliyev prospektində, Sülh, Nərimanov, Səməd Vurğun və digər küçələrdə asfalt işlər də başa çatmaq üzrədir. Yeni təmir edilən küçələrdə ictimai nəqliyyatın hərəkəti üçün xüsusi zolaq ayrılıb. Belə zolaqların gələcəkdə bütün şəhər yollarında salınması nəzərdə tutulub. Məqsəd sərnişinlərin və avtobusların rahat hərəkətini təmin etməkdir.

Səməd Vurğun küçəsində yenidənqurma işləri də başa çatıb. Bu küçə şəhərin ən böyük küçələrindən biridir. Onu digər ərazilərlə birləşdirən yollarda da asfaltlama işləri görülür. Həmin yollarda piyadaların gediş-gəlişi üçün keçid zolaqları rənglənir və ərazidə xüsusi işıqlandırma nişanı quraşdırılır. İlin sonunadək Sumqayıtın bütün küçələrinin asfaltlanması nəzərdə tutulub.

Yeni təmir edilmiş yollarda marşrut xətlərində fəaliyyət göstərən avtobuslar yeniləri ilə əvəzlənir. Şəhərin marşrut xətlərinə müasir tələblərə cavab verən 200-dən çox avtobus çıxarılıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Heyvandarlıq məhsullarının istehsalı artır

Əsasən kənd təsərrüfatı rayonu olan Salyanda heyvandarlıq aqrar sektorun aparıcı sahələrindən biridir. Rayonda bu sahənin inkişafına xüsusi diqqət yetirildiyindən heyvanların baş sayı ilbəil çoxalır ki, bu da məhsul artımına müsbət təsir göstərir.

Rayon statistika idarəsinin rəisi Elnur Hüseynov AZƏRTAC-a bildirib ki, hazırda rayonun ayrı-ayrı heyvandarlıq təsərrüfatlarında 63 min 383 baş iribuynuzlu mal-qara, 186 min 736 baş qoyun-keçi saxlanılır, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 298 baş çoxdur. Naxırda ana inək və camışların sayı 33 min 265 başdır. Cari ilin 8 ayında rayonun heyvandarlıq təsərrüfatlarında 5 min 431 ton ət (diri çəkidə), 31 min 423 ton süd, 347,6 ton yun, 22 milyon 150 min ədəd yumurta istehsal olunub ki, bu da keçən ilin eyni dövründə istehsal olunan ətdən 129 ton, süddən 146 ton, yundan 100 kiloqram, yumurtadan isə 4 min 45 ədəd çoxdur.

## Naftalanda sərgi-satış yarmarkası təşkil olunub

Naftalanda Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) və Naftalan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Gəncə-Qazax iqtisadi rayonunda fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarların məhsul və xidmətlərinin sərgi-satış yarmarkası keçirilib.

KOBİA-dan AZƏRTAC-a bildirilib ki, mikro, kiçik və orta sahibkarların məhsul və xidmətlərinin təqdim edilməsi və satış imkanlarının genişləndirilməsi məqsədilə keçirilmiş sərgi-satış yarmarkasında əsasən qadın sahibkarların məhsulları və əl işləri nümayiş olunub. Ümumilikdə sərgi-satış yarmarkasında 30-dək KOB subyektinin 50-dən çox çeşiddə məhsulları sərgilənib.

Qeyd edək ki, sərgi-satış yarmarkası İqtisadiyyat Nazirliyi, Avropa İttifaqı və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin birgə həyata keçirdiyi "Gəncə-Qazax iqtisadi rayonunda yerli və regional inkişafa dəstək" layihəsi çərçivəsində keçirilən "Azərbaycanda regional inkişaf" mövzusunda tədbir çərçivəsində təşkil edilib.

## 8 ayda süni mayalanma yolu ilə 864 baş buzov alınıb

İmişlidə heyvandarlq əsas təsərrüfat sahələrindən biridir. Dövlətin aqrar bölmənin digər sahələri ilə yanaşı, heyvandarlığın inkişafına göstərdiyi hərtərəfli qayğı, son məhsula və bala alımına görə maldarlara verdiyi əlavə subsidiyalar rayonda bu sahənin inkişafına güclü təkan verib, mal-qaranın baş sayının artmasına səbəb olub.

Son illər rayonda mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində də xeyli iş görülüb. Bu məqsədlə xarici ölkələrdən ətlik və südlük düyələr gətirilir, süni mayalanma məntəqələrinin şəbəkəsi genişləndirilir. Süni mayalanma yolu ilə doğulan hər buzov üçün dövlət tərəfindən 100 manat subsidiya verilməsi təsərrüfat sahiblərində heyvandarlığın inkişafında bu yoldan geniş istifadə etmələrinə marağı daha da artırıb. Rayon statistika idarəsindən AZƏRTAC-a bildiriblər ki, hazırda rayonda 7 süni mayalanma məntəqəsi fəaliyyət göstərir, onlardan da 4-ü əsas, 3-ü isə yardımçı məntəqələridir.

Ötən il və bu ilin ilk aylarında həmin məntəqələrin mütəxəssisləri tərəfindən mayalanma aparılmış 1591 baş inək və düyədən 864 buzov alınıb. Doğulan buzovlara görə maldarlara ümumilikdə 86 min 500 manat subsidiya ödənilib.

Qeyd edək ki, hazırda İmişlinin heyvandarlıq təsərrüfatlarında 94 min 364 baş iribuynuzlu mal-qara saxlanılır, bunların da əksəriyyəti süni mayalanma yolu ilə cins tərkibi yaxşılaşdırılmış heyvanlardır.







## Neft-qaz layihələrinin reallaşmasında yerli mütəxəssislər önəmli rol oynayır

### Prezident İlham ƏLİYEV: "Əsrin kontraktı"nın ölkəmiz üçün çoxşaxəli faydası var. Onlardan biri də kadr hazırlığıdır"

*Əvvəli 1-ci səh.*

Ölkəmizdə ən iri neft-qaz və ixrac layihələrinin əməliyyatçısı olan BP şirkətindən aldığımız məlumata görə, hazırda burada çalışan, o cümlədən müddətli müqavilə əsasında işləyən Azərbaycan vətəndaşlarının sayı 2510 nəfərdir. Keçən ilin ortalarından şirkətin ixtisaslı işçilərinin 90 faizini milli kadrlar təşkil edib. İxtisas tələb olunmayan işlərdə çalışanların isə hamısı yerli sakinlərdir. Ötən ilin sonunda podratçıların və subpodratçıların milliləşdirilməsi də 90 faizə çatıb. Bu, şirkətin milli işçi qüvvəsinin nisbətinin artırılması ilə bağlı kadrların milliləşdirilməsi üzrə hazırladığı beşillik planın müvəffəqiyyətlə yerinə yetirilməsi deməkdir.

"Əsrin müqaviləsi"nin 25 illik yubileyi ərəfəsində BP Azərbaycan şirkəti bu barədə belə məlumat yayıb: "AÇG layihəsində ən birinci və ən vacib yeri onun işlənməsinə cəlb olunmuş yüksək ixtisaslı insanlar tutur. Bu layihə dünyanın müxtəlif yerlərindən öz işinə sadiq minlərlə insanın töhfə verdiyi əsl beynəlxalq miqyaslı nailiyyət olsa da, işin böyük hissəsi ölkə daxilində Azərbaycan mütəxəssisləri və işçi qüvvəsi tərəfindən yerinə yetirilib".

Məlumatda daha sonra bildirilir ki, layihə tikinti işlərinin getdiyi, yaxud əməliyyatların aparıldığı obyektlərin qonşuluğundakı icmalardan minlərlə insanın məşğulluğunu təmin edib, yüzlərlə Azərbaycan şirkətinə öz bacarıqlarını inkişaf etdirməyə və neft-qaz sənayesi layihələri üçün təchizatçı olmağa imkan yaradıb.

Yeni peşələr öyrənilib, yerli biznes infrastrukturu əhəmiyyətli dərəcədə yaxşılaşıb. İmkanların bu cür artması layihələr çərçivəsində dünya səviyyəli dəniz platformalarının istehsalı ilə əlaqədar işlərin bütövlüklə Azərbaycanda yerinə yetirilməsinə imkan verib.

Bundan əlavə, hazırda Azərbaycan vətəndaşları BP Azərbaycan şirkətinin peşəkar heyətinin 90 faizini təşkil edir. AÇG layihəsində iştirak edən milli kadrların inkişaf etdirilməsi çərçivəsində şirkətin bir çox yerli işçiləri BP-nin Böyük Britaniya, İraq, Rusiya və digər ofislərində rəhbər vəzifələrə təyin olunaraq yüksək peşəkarlıq və səriştə qazanıblar.

Bu il sentyabrın 20-də Heydər Əliyev Mərkəzində "Əsrin müqaviləsi"nin 25 illiyi və Neftçilər Günü münasibətilə keçirilən mərasimdə Prezident İlham Əliyev demişdir: "Əsrin kontraktı"nın ölkəmiz üçün, xalqımız üçün çoxşaxəli faydası var. Ancaq onlardan biri də kadr hazırlığıdır. Xatırlayıram, 1994-cü ildə kontraktın üzərində iş aparılarkən xüsusi qeyd edirdik ki, biz istəyirik kontraktda Azərbaycan vətəndaşlarının işə cəlb olunması məsələsi göstərilsin. Biz istəyirdik ki, bu, bir öhdəlik kimi konsorsiumun şirkətləri üzərinə qoyulsun ki, Azərbaycan mütəxəssisləri tədricən bütün əsas vəzifələrdə işləsinlər və belə də oldu. Əlbəttə ki, birinci illərdə xarici mütəxəssislər çoxluq təşkil edirdi. Ancaq xarici şirkətlər və Azərbaycan tərəfindən aparılmış təlim kursları çox güclü kadr potensialı yaratdı. Mənə verilən məlumata görə, bu gün bu təlimlərdən keçmiş mütəxəssislər BP şirkətinin nəinki Azərbaycanda, bir çox ölkələrdə önəmli layihələrində iştirak edirlər, önəmli vəzifələrdə çalışırlar. Bu gün "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənilməsində çalışanların 90 faizdən çoxu Azərbaycan vətəndaşıdır, yəni, bunu biz təmin etdik".

Keçən il BP-nin Azərbaycanda yüksək vəzifə tutan yerli işçilərinin sayı 358-ə çatdı. Bu, yerli ofisdə işləyən yüksək vəzifəli işçilərin 63 faizdən çoxu və ondan əvvəlki ilə nisbətən 3 faiz artması deməkdir. Yüksək vəzifəli yerli işçilərin təxminən 18 faizi qadındır. Onlar qurudakı və dənizdəki əməliyyatlarda, insan resursları və maliyyə sahəsində çalışırlar. Bundan əlavə, 2018-ci il ərzində daha 41 yüksək vəzifəli Azərbaycan vətəndaşı BP-nin qlobal biznesi üzrə təyinatla başqa ölkələrdə işləyirdi. Bu ilin birinci yarısında daha 10 nəfər yerli işçi şirkətin Böyük Britaniya, İraq, Rusiya və digər ofislərində rəhbər işlərə təyin olunub. Təcrübə göstərir ki, işçi heyətini milliləşdirməklə yanaşı, azərbaycanlı mütəxəssislərin xaricdə, əcnəbilərin isə Azərbaycanda təyinatla çalışması inkişaf üçün çox faydalıdır.

Azərbaycandakı əcnəbi əməkdaşların sayı isə keçən ilin sonunda 256 nəfər idi. Onların üçdə ikisi Birləşmiş Krallıqdan, təxminən dörddə biri isə ABŞ-dan gəlib. Qalanları Braziliya, Kanada, Misir, Gürcüstan, Hindistan, İndoneziya, Meksika, Oman, Trinidad və Tobaqo, eləcə də Türkiyədəndir.

Hər il keçirilən yay təcrübələri də düzgün kadr seçiminə müsbət təsir göstərir. Keçən il tələbələrin işə qəbulu proqramı çərçivəsində 670-ə qədər ərizə qəbul edilib. Nəticədə 40-a yaxın tələbə yay təcrübəçisi kimi işə götürülüb.

Kadrların inkişafı daim diqqət mərkəzindədir. Yerli əməkdaşlara öz ixtisas sahələri üzrə əlavə dərəcə və sertifikat almaqda yardım göstərilməsi davam edir.

BP Azərbaycan şirkətinin 2018-ci ilin yekunlarına aid "Davamlı inkişaf haqqında hesabat"da deyilir: "Azərbaycanda güclü milli işçi qüvvəsi yetişdirmək əsas prioritetlərimizdən biri olaraq qalır. İş təcrübəsi az olan və ya heç olmayan gənclərin təliminə sərmayə qoyur, yeni istedadları cəlb edir və bütün karyera səviyyələrində işçilərimizə geniş çeşiddə inkişaf və karyera imkanları təklif edirik".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Milli Kitabxanada "Nəsimi Əlyazmaları dünya kitabxanalarında" adlı sərginin açılışı olub






Sentyabrın 27-də M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasında "Nəsimi Əlyazmaları dünya kitabxanalarında" adlı kitab sərgisinin açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, "Mədəni sərvətlərimizin vətənə qayıdışı" layihəsi çərçivəsində təşkil olunan sərgi Bakı VI Beynəlxalq Kitab Sərgi-Yarmarkası çərçivəsində reallaşıb.

Sərginin açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib.

Mədəniyyət naziri Əbülfəs Qarayev tədbirdə çıxış edərək sərgi haqqında ətraflı məlumat verib. Bildirib ki, sərgidə Şərqin böyük mütəfəkkiri İmadəddin Nəsiminin yaradıcılığına həsr olunmuş əlyazmaların surətləri yer alır. Bu kitablar dünyanın müxtəlif aparıcı kitabxanalarından əldə olunaraq Milli Kitabxananın arsenalına daxil edilib. Sərgi ölkəmizdə VI dəfə təşkil edilən kitab sərgi-yarmarkası çərçivəsində açılıb. Bu gün kitab və kitabxana işinə ölkəmizdə lazımi səviyyədə dövlət tərəfindən diqqət göstərilir. Azərbaycanda belə sərgi-yarmarkaların keçirilməsi artıq ənənə halını alıb.



Nazir vurğulayıb ki, İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə ölkəmizdə müxtəlif tədbirlərlə qeyd olunur. Həmçinin dövlət başçısının daha bir sərəncamı ilə 2019-cu il ölkəmizdə "Nəsimi ili" elan edilib. Prezidentin İmadəddin Nəsiminin yubileyinin keçirilməsi haqqında sərəncamının icrasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyinin əmri ilə tədbirlər planı hazırlanıb. Görkəmli şairin 650 illik yubileyi öncəsi, ötən il ədəbi-mədəni mühitdə geniş rezonans doğuran əhəmiyyətli bir layihə - Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanda ilk dəfə olaraq Nəsimi - şeir, sənət və mənəviyyat festivalı keçirilib. Bir gün sonra təşkil ediləcək növbəti eyniadlı festival yubiley ilinin ən yaddaqalan tədbirlərindən olacaq. Buna görə də "Nəsimi Əlyazmaları dünya kitabxanalarında" sərgisi Mədəniyyət Nazirliyinin ikinci dəfə keçiriləcək "Nəsimi - şeir, incəsənət və mənəviyyat" beynəlxalq festivalına hədiyyəsidir.

Nazir Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ölkənin ən böyük kitabxanasına gəlişini fond tərəfindən kitaba, mütaliəyə və oxu mədəniyyətinə göstərilən diqqətin göstəricisi kimi qiymətləndirib.

Milli Kitabxananın direktoru Kərim Tahirov kitabxana barədə məlumatların, üç dildə çap olunmuş, ana haqqında şeirlərin yer aldığı kitabları Leyla Əliyevaya təqdim edib.

Sonra qonaqlar sərgi ilə tanış olublar.

Həmçinin Leyla Əliyevanın iştirakı ilə Milli Kitabxanada beynəlxalq əməkdaşlıq zalının da açılışı olub.

Açılışda 13 ölkənin Azərbaycandakı diplomatik nümayəndələri və kitabxanaların rəhbərləri də iştirak ediblər. Məlumat verilib ki, bu zalda həmin ölkələrin ədəbiyyat guşələri və kitabxanaları ilə birbaşa internet əlaqəsi yaradaraq faydalanmaq mümkündür.

Qonaqlar Milli Kitabxananın oxu zalları ilə tanış olublar.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva "Nəsimi" antreprizasının təqdimatında iştirak edib

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi, inklüziv teatr olan ƏSA Teatrının və sosial müəssisələrdə peşə kursu keçmiş istedadlı gənclərin birgə iştirakı ilə hazırlanan "Nəsimi" antreprizası təqdim olunub.





AZƏRTAC xəbər verir ki, tamaşa Prezident İlham Əliyevin sərəncamına əsasən, böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu ilin "Nəsimi ili" elan edilməsi münasibətilə keçirilən Nəsimi - şeir, incəsənət və mənəviyyat Festivalına həsr olunub.

Nizami Kino Mərkəzində nümayiş olunan antreprizanın təqdimatında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva da iştirak edib.

Tamaşanın təqdimatından əvvəl əlilliyi olan şəxslərin Nəsiminin həyat və yaradıcılığına həsr etdikləri, 30-a yaxın incəsənət nümunəsindən ibarət "Nəsimi" sərgisi nümayiş etdirilib.

Leyla Əliyeva sərgi ilə tanış olub, əl işlərinin müəllifləri ilə söhbət edib.

Sonra "Nəsimi" antreprizası nümayiş olunub.

Plastik üslubda təqdim edilən antrepriza İmadəddin Nəsiminin həyat və yaradıcılığından bəhs edir. Başlanğıcda qanunla ifa edilən musiqidəki hər bir not Nəsiminin ideologiyasının və onun fəlsəfi fikirlərinin musiqiyə köçürülmüş təcəssümüdür. Daha sonra Nəsiminin ustadla qarşılaşaraq doğru yola istiqamətlənməsi, bu yolda həqiqəti dərk etməsi və dərk etdiyi həqiqəti insanlığa çatdırması, onun mübarizəsi, sonda isə zülmə boyun əymədən haqdan dönməməsi və ruhunun əbədi dünyada nura qovuşmağı böyük məharətlə təqdim olunur.

Tamaşanın quruluşçu rejissoru və bədii rəhbəri Nihad Qulamzadə, plastik həll üzrə rejissoru Pərviz Məmmədrzayev, bəstəkarı Vüqar Camalzadə, quruluşçu rəssamı Vüsal Rəhimdir. Tamaşada rolları Elşən Əsgərov, Rafael Şahbəyli, Səmayə Ağayarova, Cəmilə Məmmədli, Mehdi Cənnəti, Aysel Əlizadə, Rəhimə Abdinova, Elvin Mirzəyev, Pegah Dafe, Riad Sultanov və başqaları ifa ediblər. Tamaşa üçün xüsusi səhnə qurulub, 20-dən çox musiqi bəstələnib, özəl kostyumlar tikilib, əlilliyi olan şəxslərlə işləyən xoreoqraf dəvət olunaraq xüsusi plastik həllərdən istifadə edilib.

Antreprizanın diqqəti cəlb edən fərqli cəhəti tamaşada iştirak edən gənclərin hərəkət məhdudiyyətli olmalarına baxmayaraq, bədii plastikadan bacarıqla istifadə edə bilmələri olub. Onlar istedadlı ifa tərzləri, rəqsləri və s. ilə Nəsimi şeiriyyətinin ruhunu, fəlsəfəsini, ümumən Nəsimi dühasını 55 dəqiqəlik tamaşa boyu auditoriyaya dolğun şəkildə çatdıra biliblər.

Əlilliyi olan insanların sosial müdafiəsinin gücləndirilməsi, onların reabilitasiyası və cəmiyyətə inteqrasiyası Prezident İlham Əliyevin uğurlu sosial siyasətinin prioritetlərindən biridir. Bu istiqamətdə tədbirlər ildən-ilə geniş vüsət alır. Əlilliyi olan şəxslərin, sağlamlıq imkanları məhdud gənclərin və uşaqların qayğı ilə əhatə olunmasında, onlar üçün reabilitasiya imkanlarının genişləndirilməsində, sosial xidmət müəssisələrində müasir tələblərə uyğun yaşayış və reabilitasiya şəraitinin yaradılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın nəcib layihə və təşəbbüslərinin böyük rolu var. Heydər Əliyev Fondu bu sahəyə, eyni zamanda, əlilliyi olan şəxslərin bacarıqlarının cəmiyyətə tanıdılması işlərinə mühüm töhfələr verib.

Həmçinin Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyasına dəstək göstərir. Leyla Əliyevanın fiziki məhdudiyyətli insanlara, sosial müəssisələrin sakinlərinə xeyirxah, qayğıkeş münasibəti, habelə həmin müəssisələrə tez-tez gedərək onlarla görüşməsi bunun bariz nümunəsidir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əlilliyi olan şəxslərin yaradıcılıq potensiallarının dəstəklənməsi sahəsində layihələr həyata keçirir. Həmin məqsədlə ümumrespublika səviyyəli sərgi-yarmarkalar, baxış müsabiqələrinin təşkili, xüsusi bacarıqları ilə fərqlənən əlilliyi olan şəxslərin mükafatlandırılması tədbirləri ənənəvi xarakter alıb. Nazirlik tərəfindən ilk dəfə olaraq sosial müəssisələrin istedadlı sakinlərinin yaradıcılıq fəaliyyətini əhatə edən, 278 səhifəlik "Əlillik qüsur deyil" kitab-albomu nəşr edilib. Kitab-albomdakı mətnlər Azərbaycan və ingilis dillərindədir.

Əlilliyi olan şəxslərdən ibarət ƏSA Teatrı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə öz yaradıcılıq imkanlarını və repertuarını xeyli genişləndirib. Bu dəstək nəticəsində teatrın Moris Meterlinkin "Göy quş" pyesi əsasında hazırladığı eyniadlı tamaşa ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb. Hazırlanan "Nəsimi" antreprizası da bu sahədə uğurlu işlərin davamıdır və əlilliyi olan istedadlı şəxslərin Nəsimi yaradıcılığına böyük maraq və məhəbbətini özündə ifadə edir.

Nazirlik ƏSA Teatrı ilə birgə gələcəkdə də bir sıra yeni uğurlu layihələr həyata keçirməyi nəzərdə tutur.

# Hesablama Palatasında nəzarət tədbirləri üzrə auditor hesabatlarına dair müzakirələr aparılıb

Hesablama Palatasının kollegiya iclasında həyata keçirilmiş bir sıra nəzarət tədbirləri üzrə auditor hesabatları müzakirə olunub.

Palatanın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hesabatlar "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə dövlət büdcəsindən ayrılan vəsaitlərin icrası və dövlət əmlakından istifadəyə, Abşeron Rayon İcra Hakimiyyəti və tabeliyində olan idarə, müəssisə və təşkilatlara dövlət büdcəsinin "Mənzil və kommunal təsərrüfatı" bölməsindən, dövlət əsaslı vəsait qoyuluşundan və ehtiyat fondlarından ayrılmış vəsaitlərin istifadəsinə dair məsələləri əhatə edib. Kollegiya iclasında hər bir nəzarət tədbiri üzrə auditor hesabatları barədə müvafiq qərar qəbul olunub.

Nəzarət tədbirlərinin nəticələri üzrə qərarın icrasını təmin etmək məqsədilə aidiyyəti qurumlara kollegiya qərarının və auditor hesabatının göndərilməsi, Milli Məclisə müvafiq məlumatın təqdim olunması qərara alınıb.

# Dövlət Gömrük Komitəsinin sədri Biləsuvar gömrük postundakı mövcud vəziyyətlə maraqlanıb



Sentyabrın 27-də Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev Azərbaycanın İranla dövlət sərhədində yerləşən Cənub Ərazi Baş Gömrük İdarəsinin Biləsuvar gömrük postunda mövcud vəziyyətlə tanış olub.

Komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, S.Mehdiyev Biləsuvar gömrük postunda gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi barədə müvafiq tapşırıqların icra vəziyyətini öyrənib. Bu istiqamətdə görülmüş tədbirlərin səmərəliliyi barədə DGK-nın sədrinə məlumat verilib. O, dövlət sərhədindən keçən şəxslərin və nəqliyyat vasitələrinin daha asan və sürətli keçidinin təmin edilməsi üçün aparılacaq yenidənqurma işləri, eləcə də sərhədkeçmə prosesinin sürətli, şəffaf və maneəsiz şəkildə həyata keçirilməsinə dair tapşırıq və tövsiyələrini verib.

Daha sonra S.Mehdiyev Biləsuvar gömrük postunda yeni quraşdırılan "Body scan" (B-scan) markalı texniki nəzarət vasitəsinə baxış keçirib, bu avadanlığın iş prinsipi ilə tanış olub.

# "Könüllümüz ol" layihəsinin iştirakçılarına sertifikatlar təqdim edilib

Sentyabrın 27-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində təcrübə keçmiş "Könüllümüz ol" layihəsinin iştirakçılarına sertifikatlar təqdim olunub.

Komitədən AZƏRTAC-a bildiriblər ki, dövlət komitəsinin sədri Mübariz Qurbanlı Prezident İlham Əliyevin gənclərin inkişafına yönələn dövlət siyasətini daim diqqət mərkəzində saxlamasından, bu istiqamətdə respublikamızda görülən işlərdən bəhs edib. O bildirib ki, dövlət başçısı tərəfindən dövlət orqanlarının qarşısına gənclərin potensialından daha səmərəli istifadə etmək, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onlara peşə vərdişlərini aşılamaq və təcrübi biliklərini artırmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək və ölkədə könüllülük hərəkatını inkişaf etdirmək vəzifəsi qoyulub. Bu məqsədlə DQİDK tərəfindən 2 ay müddətində "Könüllü fəaliyyət" layihəsinin reallaşdırıldığını, layihə iştirakçılarının dövlət komitəsinin gündəlik iş prosesində, tədbirlərin və konfransların təşkilində yaxından iştirak etdiklərini və təcrübi biliklərə yiyələndiklərini vurğulayan komitə sədri bu fəaliyyətin gənclərin gələcək iş həyatlarına önəmli və effektiv təsir edəcəyini deyib.

Təcrübə kursunu müvəffəqiyyətlə başa vurmuş gənclərə təbriklərini çatdıran Mübariz Qurbanlı onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

İki ay müddətində dövlət komitəsinin müxtəlif şöbələrində təcrübəli mütəxəssislərlə birbaşa çalışan, bu sahədə təcrübə toplayan könüllülər göstərilən etimada görə təşəkkürlərini bildiriblər.

Daha sonra könüllülərə sertifikatlar təqdim edilib.

# "Azərbaycan 100 mahnıda" kitabının təqdimatı olub





Sentyabrın 27-də Azərbaycan Milli İncəsənət Muzeyində "Azərbaycan 100 mahnıda" kitabının təqdimatı keçirilib.

AZƏRTAC xəbər verir ki, XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində təqdim olunan layihənin rəhbəri və ideya müəllifi, bəstəkar-musiqişünas, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Xalq artisti Aygün Səmədzadədir.

Mədəniyyət Nazirliyi və Nəfəs Sənət Mərkəzinin təşəbbüsü ilə keçirilən tədbirdə Milli Məclisin deputatları, tanınmış elm və mədəniyyət xadimləri iştirak ediblər.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Jalə Əliyeva "Azərbaycan 100 mahnıda" kitabını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə böyük töhfə kimi dəyərləndirib.

Aygün Səmədzadənin bənzərsiz yaradıcılığından söz açan Jalə Əliyeva deyib ki, o, əldə etdiyi bu sənət şöhrətini böyük zəhmət və əzmkarlıq bahasına qazanıb.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinin inkişafında yeni bir dövrün əsasını qoyduğunu söyləyən Milli Məclisin deputatı qeyd edib ki, Ümummilli Liderin siyasi kursu bu gün Prezidentimiz İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bildirib ki, Azərbaycan mədəniyyətinin hamisi kimi tanınan Heydər Əliyev Fondu və fondun prezidenti Mehriban xanım Əliyeva bu gün mədəniyyətimizin dünyada tanınmasına böyük töhfələr verməkdədir.

"Ölkə başçısının müvafiq sərəncamları ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin keçirilməsi və ötən ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilməsi neçə-neçə belə layihələrin reallaşmasına təkan verib. Bu istiqamətdə görülən işlərin davamı olaraq məhz bu gün belə bir uğurlu layihənin təqdimatına toplaşmışıq", - deyə Jalə Əliyeva vurğulayıb.

Kitabın çapını əlamətdar hadisə kimi dəyərləndirən Azərbaycan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru Lalə Hüseynova deyib ki, Aygün Səmədzadə istedadlı bəstəkar olmaqla yanaşı, həm də gözəl musiqişünasdır. Məhz bu səbəbdən də kitaba Azərbaycan haqqında çox dəyərli əsərlər toplanıb. 35 bəstənin yer aldığı kitabda Aygün Səmədzadə əsl musiqişünas alim kimi peşəkarlarla yanaşı, gənc və həvəskar bəstəkarların da əsərlərinə yer ayırıb.




Tədbirdə AMEA-nın müxbir üzvi Rəna Məmmədova, Xalq artistləri Sərdar Fərəcov, Faiq Sücəddinov və Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi çıxış edərək Aygün Səmədzadə yaradıcılığından və onun milli bəstəkarlıq məktəbimizin inkişafındakı rolundan söz açıblar.

Bildirilib ki, kitabda Azərbaycan bəstəkarlarının 100 il ərzində bəstələdiyi 100 mahnı toplanıb. Toplu dahi Üzeyir Hacıbəylinin Əhməd Cavadın sözlərinə Dövlət himni ilə açılır və 100 il ərzində yazılan, tanınan və sevilən mahnılardan bir çoxunu əhatə edir. Burada Qara Qarayev, Asəf Zeynallı, Fikrət Əmirov, Tofiq Quliyev, Cahangir Cahangirov, Rauf Hacıyev, Vasif Adıgözəlov, Emin Sabitoğlu, Elza İbrahimova, Ramiz Mirişli, Ələkbər Tağıyev, Səid Rüstəmov, Süleyman Ələsgərov, Oqtay Rəcəbov, Müslüm Maqomayev, Aygün Səmədzadə, Cavanşir Quliyev kimi bəstəkarların mahnıları öz əksini tapır.

Qeyd edilib ki, bu kitab musiqi məktəblərinin şagirdləri və tələbələri üçün çox böyük əyani vəsait olacaq.

Natiqlər belə bir layihənin reallaşmasını Aygün Səmədzadənin Azərbaycana olan sevgisinin bariz nümunəsi kimi dəyərləndiriblər.

Bütün iştirakçılara minnətdarlığını bildirən layihənin rəhbəri Aygün Səmədzadə belə bir kitabın XI Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalı çərçivəsində təqdim olunmasından qürur duyduğunu bildirib. Kitabın ərsəyə gəlməsinə 3 ilə qədər bir vaxt sərf olunduğunu söyləyən müəllif bildirib ki, bu layihə davamlı olacaq. Layihənin reallaşmasında əməyi olanları xüsusilə qeyd edən A.Səmədzadə deyib ki, bu kitabı vərəqləyən hər bir kəs nə vaxtsa unutduğu mahnını burada görəcək, yaxud da hansısa mahnını görməyəndə təəssüflənəcək. Bu ilk nəşrdir və yaxın gələcəkdə daha təkmilləşmiş nəşrləri musiqisevərlərə təqdim edəcəyik. "Bu, bizim Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə bir töhfəmizdir. Başqa xalqlara nisbətdə bizim bəstəkarlarımız vətən mövzusuna daha çox müraciət ediblər. Bu da ölkəmizə, məmləkətimizə sonsuz sevgimizdən irəli gəlir. Düşünürəm ki, bu mövzuda yazılmış bütün əsərləri bir kitaba yerləşdirmək mümkünsüzdür. İstərdik ki, bu nəşr musiqi məktəblərində tədris vəsaiti kimi istifadə edilsin".

Tədbir musiqili proqramla davam edib.

# Bərdə məktəbliləri narkomaniyaya "yox" deyir

Respublikamızın hər yerində olduğu kimi, Bərdə rayonunda da gənc və yeniyetmələrin fiziki cəhətdən sağlam, vətənpərvərlik ruhunda tərbiyə olunmasına böyük önəm verilir. Bu sırada narkomaniyaya qarşı mübarizə hər zaman diqqət mərkəzində saxlanılır.



Bu günlərdə rayonun qabaqcıl təhsil ocaqlarından olan 8 saylı Bərdə şəhər tam orta məktəbində "Narkomaniyaya yox deyək" devizi altında keçirilən tədbir ictimai əhəmiyyəti və aktuallığı ilə diqqət çəkir.

Məktəbin direktoru Qənbər Ağayev ölkəmizdə yüksək intellektual səviyyəyə malik, vətənpərvər nəslin yetişməsinə dövlətin davamlı qayğısından danışaraq qeyd etdi ki, bugünün şagirdləri sabahın qurucularıdır. Dövlət də, xalq da maraqlıdır ki, sabahımız etibarlı əllərdə olsun. Bunun üçün zərərli vərdişlərdən uzaq dayanmaq, ona qarşı barışmaz mübarizə aparmaq vacib şərtdir.

Tədbirdə Bərdə Rayon Polis Şöbəsinin rəisi, polkovnik Muradəli Babayev məktəblilər qarşısında çıxış edərək ölkədə dövlət gənclər siyasətinin uğurlarından, Prezident İlham Əliyevin Azərbaycan gəncliyinə qayğı və diqqətindən danışdı. Natiq qeyd etdi ki, uğura aparan yol fəal vətəndaş mövqeyindən keçir. Dövlət gənc və yeniyetmələrin sağlam həyat tərzi, dərin biliyə, yüksək intellektual səviyyəyə malik olmasından ötrü bütün zəruri tədbirləri görür, qayğısını əsirgəmir. Gənc və yeniyetmələrin asudə vaxtlarını səmərəli və mənalı keçirmələri üçün ölkənin bütün bölgələrində müasir tələblərə cavab verən idman kompleksləri tikilib istifadəyə verilmişdir.

Sözünə davam edən natiq təəssüflə vurğuladı ki, bəzi gənc və yeniyetmələr zərərli vərdişlərə meyillənir, narkotik maddələrdən asılı vəziyyətə düşürlər. Bəşəriyyət üçün böyük bəlaya çevrilmiş narkomaniyanın fəsadları dövlətin təməli olan ailənin dayaqlarını sarsıdır, cinayətkarlığa aparır, faciələr törədir. Narkomaniyaya qarşı mübarizə yalnız hüquq mühafizə orqanlarının işi olmamalıdır. Bu bəlaya qarşı bütöv cəmiyyətin mübarizəsi lazımdır.

Tədbirdə Bərdə Rayon Təhsil Şöbəsinin müdiri Rzaqulu Şərifov, DİN Regional Tibb Xidmətinin rəisi Həbib Məmmədov, valideynlər, veteranlar, məktəblilər çıxış edərək narkomaniyaya qarşı mübarizə üsullarından istifadənin zəruri olduğunu göstərdilər.

Tədbirin sonunda Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı, polis mayoru Hafiz Təmirovun "Xatirən var" kitabının təqdimatı oldu. Müəllif məktəblilər qarşısında çıxış edərək şagirdlərə xoş arzularını çatdırdı. O, vətəni, xalqı, hər qarış torpağımızı sevməyi, zərərli vərdişlərdən uzaq dayanıb dövlət üçün layiqli vətəndaş olmağı vacib bildi.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*


## Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi
## Tələbatın formalaşdırılması və toplanılması üçün proqram təminatının satın alınması məqsədilə
## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar 150 (yüz əlli) manat məbləğində heç bir halda geri qaytarılmayan iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsilə əldə edə bilərlər:

**Təşkilat: Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son iki ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son iki ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *məhkəmə araşdırmalarına cəlb olunub-olunmaması barədə məlumat;*
- *son beş ildə yerinə yetirilmiş analoji işlər barədə ətraflı məlumat;*
- *məhsulun (proqram təminatının) ətraflı təsviri;*
- *malgöndərənin satınalma müqaviləsinin icrasını təmin etmək üçün potensial imkanlarının mövcudluğu barədə məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinə Portal vasitəsilə ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **17 oktyabr 2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **28 oktyabr 2019-cu il saat 17:00-a** qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **29 oktyabr 2019-cu il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***


# Növbə









**Aşıq gördüyünü çağırar. Növbə sözünü eşidəndə adamın yadına keçmiş sovet dönəmindəki növbələr düşür. O zaman hind, bəzən də nadir hallarda nümayiş etdirilən İran filmlərinə baxmaq üçün uzun növbələr olardı. Türk müğənnilərinin konsertlərinə bilet almaq üçünsə qırğın düşərdü.**

Bir də meyvə-tərəvəz köşklərində bazardan bir neçə dəfə ucuz satılan mermeyvəyə sicilləmə növbələr uzanardı. Bu növbələr də elə-belə, beş-on addım uzanan növbələrdən deyildi. Ucuz meyvə-tərəvəz almaq istəyənlər bu növbələrə durardılar, vaxtı öldürmək üçün danışardılar, qeybət qırardılar...

1970-ci illər idi, tələbə idik, yataqxanada bir otaqda 4 nəfər qalırdıq. Hər ay 30 manatdan atışıb, belə köşklərdən bazarlığımızı edər, güzəranımızı yola verərdik... Dolanardıq, bir sözlə. Amma yadda qalan bir növbəni də xatırlatmamaq olmur. O zaman Efiopiyadan bizə təcrübə mübadiləsinə tələbələr gəlmişdi. Çox fikirləşdik, götür-qoy etdik və qərar verdik ki, bunları ağlamalı bir təzə hind filminə dəvət edək. Dəstə ilə növbəyə durduq, bir neçə saat dayandıq. Kassaya yaxınlaşdıqca adam adamın belinə çıxırdı. Nə isə, axşam sevinə-sevinə efiopiyalıları kinoteatra apardıq. Elə bilirdik ki, sevinəcəklər, bizdən razı qalacaqlar. Amma beş-on dəqiqə keçməmiş gördük ki, efiopiyalı tələbələr qış yuxusuna gediblər. Necə yatdılarsa, yalnız filmin sonunda oyandılar.

Aradan 50 ilə yaxın vaxt keçəndən sonra təsadüf elə gətirdi ki, bir də növbənin tamını daddıq. Amma Bakıda yox, Moskvada, Puşkin muzeyində...

Dünyada muzeylər hamının böyük məhəbbətlə can atdığı elə məkandır ki, ora düşmək üçün bir çox ölkələrdə insanlar saatlarla növbəyə durmaqdan bezmirlər. Moskvadan başqa, Londonda, Parisdə, Drezdendə muzeylərə saatlarla növbələr olur. İnternet resurslarında bu növbələrdə az gözləməyin qaydalarından yazırlar. Lakin muzeyə növbəyə durmaqdan qürur hissi keçirənlər, öyünənlər də tapılır ki, axıra qədər duruş gətirə bilirlər, dözürlər. Moskvada Puşkin adına Təsviri İncəsənət Muzeyinə Şukinin impressionist rəssamların əsərlərindən ibarət kolleksiyasına növbəyə duranda biz də sevindik ki, bir saata içəri keçə biləcəyik. Amma sən saydığını say, gör fələk nə sayır. 200 metrlik növbədə 3 saat dayanmalı olduq. Moskvalılar növbəyə durmamaq üçün bir neçə gün əvvəl internetdən elektron bilet alırlar, bizim kimi uzaqdan gələnlər, muzeyi ziyarət etməyin incəliklərini bilməyənlər isə uzun növbənin "sevinc"ini yaşamağa məhkumdurlar. Bəlkə də növbənin tən ortasında yerə oturub, kitab oxumaqla vaxtını keçirən gənc qızı görməsəydik, bu mövzuya toxunmazdıq da. Ondan soruşduq ki, muzeyə girmək üçün bir belə gözləməyinizə dəyərmi? Gülümsədi və belə cavab verdi: "Bilirsinizmi, mən gözləmirəm ki, sadəcə 120 səhifə kitab oxuyacağam. Amma mən də, növbədə iki-üç saat vaxt itirənlər də içəridə gördüklərini ömrü boyu unutmayacaqlar. Ona görə növbəyə də durmağa dəyər, gözləməyə də".

İçəri keçdik. Pikassonun məşhur əsəri asılan böyük zalda böyüklərlə yanaşı, ağzı əmzikli uşaq öz arabasında uzanıb şəklə baxır, ləzzətlə də əmziyini əmirdi. Zalda adam çox olsa da, çalışırdılar ki, uşağın qarşısını kəsməsinlər. Heyrətlənəndə tələbəlik dostum, yazıçı-jurnalist, "İzvestiya" qəzetinin sabiq baş redaktoru, II Bakı Humanitar Forumunun iştirakçısı Vitali Abramov dedi ki, o da uşağını 30-35 il əvvəl muzeylərə tez-tez gətirərdi. Bu, uşağın zövqü, dünyagörüşünün formalaşması üçün vacibdir.

Muzeyi gəzib dolaşdıqca Bakını fikirləşdim. Keçmiş Sovet İttifaqında ağzımızı açan kimi ruslar soruşardı ki, gürcüsən, yoxsa ermənisən? Çoxunun Bakı haqqında təsəvvürü belə olmazdı. Ulu Öndər sovet dönəmində minlərlə gənci oxumağa göndərdi və bizi tədricən tanımağa başladılar. Bu gün isə hamı Azərbaycanı da, Bakını da, elə azərbaycanlıları da yaxşı tanıyır. Çünki Azərbaycan Prezidenti İlham Əliyev paytaxtımızı dünyanın ən gözəl şəhərlərindən birinə çevirdi. İndi Bakını hər yerdə tanıyırlar, Qərb və Şərq mədəniyyətinin harmonik vəhdətindən yaranan bu şəhəri sevənlərin sayı yüz minlərlədir.

Bakının yeni yaranan muzeylərinə isə söz ola bilməz. Bu muzeylərdə nadir sərgilər təşkil edilir. Azərbaycan Prezidenti İlham Əliyev ölkənin sosial-iqtisadi və mədəni həyatında bütün istiqamətlərdə nəhəng islahatları nadir islahatçı əzmi ilə reallaşdırmaqdadır. Burada muzeylərə, mədəniyyətimizin nəinki ölkə daxilində, hətta dünya miqyasında təbliğinə ciddi yer ayrılmışdır. Artıq bizim də borcumuzdur ki, övladlarımızı, nəvələrimizi bu muzeylərə aparaq. Azərbaycana gələn əcnəbilərin əksəriyyəti bizim muzeyləri bir-bir gəzirlər, hansı məşhurların əsərlərinin hansı muzeydə sərgiləndiyini də bizdən yaxşı bilirlər. Muzeylərimiz məktəblilərin, tələbələrin və hətta azyaşlı uşaqların da yolunu gözləyir. Gənc nəslin muzeylərə gedən yolu açıqdır. Onların muzeylərimizi daha dərindən tanıması, mədəniyyətimizə daha dərindən və sidq-ürəkdən bağlanması zəruridir.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Beynəlxalq aləm

## ABŞ Səudiyyə Ərəbistanına "Patriot" və 200 hərbçi göndərir



ABŞ Səudiyyə Ərəbistanına "Patriot" zenit-raket kompleksləri və 200 hərbi qulluqçu göndərir. Bundan əlavə, Vaşinqton krallığın müdafiəsini gücləndirmək üçün ər-Riyada dörd radiolokasiya sistemi təqdim edəcək. Bu barədə ABŞ-ın Müdafiə naziri Mark Esper məlumat vermişdir.

Sentyabrın 14-də Səudiyyə Ərəbistanının "Saudi Aramco" neft şirkətinin iki zavodunda yanğın baş vermişdir. Yanğına səbəb pilotsuz uçuş aparatlarının hücumu olmuşdur. Hücuma görə məsuliyyəti Yəməndəki qiyamçı hövsilərin silahlı qruplaşması üzərinə götürmüşdür.

ABŞ-ın dövlət katibi Mayk Pompeo hücumun Yəməndən edildiyinə sübut tapılmadığını bildirmişdir. O, bu hadisəni bütün dünyanı enerji resursları ilə təchiz edən ölkəyə misli görünməmiş hücum kimi qiymətləndirmiş və hücumda İranı ittiham etmişdir. Almaniya, Fransa, Böyük Britaniya və Səudiyyə Ərəbistanı da hücuma görə məsuliyyəti Tehranın üzərinə qoymuşlar. Lakin İran bu ittihamları rədd etmişdir.

## Vaşinqton Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etdi



ABŞ Suriyaya aviasiya yanacağı göndərdiyinə görə Rusiyaya qarşı yeni sanksiyalar tətbiq etmişdir. Cərimə Rusiyanın "Sovfraxt" şirkətinin üç əməkdaşı - İvan Okorokov, İlya Loginov və Karen Stepanyan məruz qalmışdır. Bu barədə ABŞ Maliyyə Nazirliyi məlumat verir.

Məlumata görə, "Sovfraxt" Suriyadakı rusiyalı hərbçilərə aviasiya yanacağını gizli göndərmək məqsədilə Moskvadakı "Maritime Assistance" firmasını cəlb etmiş və əvvəllər də ABŞ-ın sanksiyalarına məruz qalmış "Transpetroçart" şirkətinin gəmilərinin köməyi ilə bu prosesi həyata keçirmişdir.

Yeni sanksiyalar "Maritime Assistance" şirkətinə, habelə "Transpetroçart"ın beş gəmisinə - "Yaz", "Siq", "Sudak", "Passat" və OT-2077-yə şamil olunmuşdur.

## Əfqanıstanda hərbi blok-posta hücum



"Taliban" hərəkatının silahlıları Əfqanıstanın şimalında yerləşən Fəryab əyalətinin Dəhən Dərə rayonunda hərbçilərin blok-postuna hücum etmişlər. Nəticədə 15 hərbi qulluqçu həlak olmuşdur. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Fəryab Əyalət Şurasının başçısı Məhəmməd Tahir Rəhmaninin dediyinə görə, hücumdan sonra döyüş başlamışdır. Taliblər arasında da tələfatın olduğu bildirilir. Blok-post komandirinin dediyinə görə, 15 hərbçi yaralanmışdır.

## Almaniya Albaniya və Şimali Makedoniyanın Aİ-yə qoşulmasının şərtlərini açıqladı

Almaniya parlamentinin deputatları Avropa İttifaqının (Aİ) Albaniya və Şimali Makedoniya Respublikasının Aİ-yə daxil olması ilə bağlı danışıqlara başlamaq təşəbbüsünü mütləq səs çoxluğu ilə dəstəkləmişlər. Parlamentarlar həmçinin Xristian-Demokrat İttifaqı və Xristian-Sosial İttifaqı blokunun, habelə Sosial-Demokrat Partiyasının regionda vəziyyət barədə vəsatətlərini düzəlişlərlə qəbul etmişlər.

Vəsatətlərdə deyilir ki, Şimali Makedoniyanın Aİ-yə qoşulmaq perspektivi regionda islahat və sabitliyin hərəkətverici qüvvəsinə çevrilmişdir. Deputatlar məhkəmə sistemində islahatları və korrupsiya ilə mübarizəni qeyd etmişlər. Bundan əlavə, Albaniyanın "əsas meyarlar"da irəliləyişi və islahatların keçirilməsi naminə səylər müsbət qiymətləndirilmişdir.

Vəsatətlərin müəllifləri danışıqların iki mərhələdə keçirilməsini istəyirlər. Onların fikrincə, birinci raund Albaniyada seçki islahatı haqqında qanun qəbul edildikdən sonra mümkündür. Bundan əlavə, ölkəyə işlək ali və konstitusiya məhkəmələri lazımdır.

İkinci raund Tiranadan seçki islahatı keçirməyi, habelə korrupsiya və mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə ciddi tərəqqi tələb edir. Skopye həmçinin səylərinə davam etməlidir.

## UNICEF və İİB müsəlman xeyriyyə fondu yaratdı

BMT-nin Uşaq Fondu (UNICEF) və İslam İnkişaf Bankı (İİB) ehtiyacı olan milyonlarla uşağa humanitar yardım göstərmək məqsədilə yeni fond yaratmışlar. Yardımı müsəlman xeyriyyə cəmiyyətləri təqdim etmişdir.

UNICEF-in məlumatına görə, "Qlobal Müsəlman Uşaq Xeyriyyə Fondu" (GMPFC) BMT-nin müsəlmanların ianələri sayəsində yaratdığı ilk belə qurum olacaq. Fondda toplanan vəsait fövqəladə yardım və inkişaf proqramlarının reallaşdırılmasına yönəldiləcək.

İanələrin ümumi strukturunda zəkatın payı 600 milyard dollar təşkil edəcək. Yeni fondun rəhbəri İİB olacaq. Fonda hər il zəkatdan daxil olan ianələr 250 milyon təşkil etməlidir.

İİB-in başçısı Bəndər Həcər qeyd etmişdir ki, dünyada humanitar yardıma tələbat artır: "2019-cu ilin əvvəlindən bəri dünyada 184 milyon nəfərin, o cümlədən 89 milyon uşağın humanitar yardıma ehtiyacı var idi. Zorakılıq, sərt davranış, iqlim dəyişməsi ilə əlaqədar xəstəliklər və təbii fəlakətlər uşaqlara daha çox təsir göstərir".

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti digər maşın və avadanlıqların satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

Digər maşın və avadanlıqların satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 2000,00 (iki min) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**

**VÖEN: 1003853391**

**H/h: AZ41CTRE00000000000002947601**

**Dövlət Xəzinədarlığı Agentliyi**

**VÖEN: 1401555071**

**M/h: AZ41NABZ01360100000000003944**

**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**

**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.10.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **28.10.2019-cu il saat 15:00-a** qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **29.10.2019-cu il saat 16:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti avadanlığın satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

Avadanlığın satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasita Xidməti açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 800,00 (səkkiz yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**

**VÖEN: 1003853391**

**H/h: AZ41CTRE00000000000002947601**

**Dövlət Xəzinədarlığı Agentliyi**

**VÖEN: 1401555071**

**M/h: AZ41NABZ01360100000000003944**

**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**

**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.10.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **28.10.2019-cu il saat 15:00-a** qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri 29.10.2019-cu il saat 15:30-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti inventarın satın alınması ilə əlaqədar

### *açıq tenderə dəvət edir*

İnventarın satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasita Xidməti açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 1400 (bir min dörd yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti**

**VÖEN: 1003853391**

**H/h: AZ41CTRE00000000000002947601**

**Dövlət Xəzinədarlığı Agentliyi**

**VÖEN: 1401555071**

**M/h: AZ41NABZ01360100000000003944**

**SWIFT: CTREAZ22**

**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**

**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18.10.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **28.10.2019-cu il saat 15:00-a** qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **29.10.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" publik hüquqi şəxsin (DOST Agentliyi) tabeliyində fəaliyyət göstərən 1 saylı Bakı DOST Mərkəzi tərəfindən 17 sentyabr 2019-cu il tarixdə elan edilmiş kotirovka sorğusu metodu ilə digər maşın və avadanlıqların alınması ilə əlaqədar satınalma müsabiqəsinin qalibi "ITECH GROUP" MMC olmuşdur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Mərkəzi bankçılığın yaranmasının 100 illik yubileyinin qeyd olunması ilə bağlı hotelin seçilməsinə dair kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 06 sentyabr 2019-cu il tarixli qərarına əsasən "YENİ ABŞERON OTELİ" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə 33 600 manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 07 sentyabr 2019-cu il tarixli nömrəsində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidmətinin LOT-1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin və Qala Dövlət Tarix Etnoqrafiya Qoruğu ərazilərində küçələrin işıqlandırılması işləri üçün elektrik mal-materiallarının satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tenderdə iştirak etmək üçün sənədlərin qəbulu vaxtı (tender təklifi və bank təminatı istisna olmaqla) elektron portala 03 oktyabr 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatı isə möhürlənmiş ikiqat zərfdə 10 oktyabr 2019-cu il saat 17:00-a, təkliflərin açılışı isə 15 oktyabr 2019-cu il saat 11:00-a dəyişdirilmişdir.

**Əlaqələndirici şəxs: Mahir Əhmədov, telefon: (012) 492-24-27.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən açıqcaların və hədiyyə bağlamalarının satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 06.09.2019-cu il tarixli qərarına əsasən, fərdi sahibkar Gülnarə Teymur qızı Şıxlinskaya (VÖEN: 1306127902) kotirovka sorğusunun qalibi seçilmişdir. Qalib şirkətlə 25 sentyabr 2019-cu il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

## "BANK OF BAKU" ASC-nin səhmdarlarının nəzərinə

**12 noyabr 2019-cu il tarixdə saat 15:00-da** "Bank of Baku" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının növbəti iclası keçiriləcək.

**Ünvan:** Bankın Baş İdarəsi, Bakı AZ1069, Atatürk prospekti, 42. **Telefon:** 447-00-55. İclasın gündəliyi bildirişlə birgə səhmdarlara göndərilib.

Gündəlik üzrə materialları göstərilən ünvandan əldə etmək olar.

## К сведению акционеров ОАО "BANK OF BAKU"

**12 ноября 2019-го года в 15:00** состоится очередное заседание общего собрания акционеров Открытого Акционерного Общества "Bank of Baku".

**Адрес:** Головной Офис Банка, Баку A31069, проспект Ататюрка, 42. **Телефон:** 447-00-55.

Повестка заседания и уведомление высланы акционерам. Материалы по повестке можно получить по указанному адресу.

# Teymur Rəcəbov dünya kubokunun finalına yüksəlməklə iddiaçılar turnirinə vəsiqəni təmin edib

Sentyabrın 27-də Xantı-Mansiyskdə şahmat üzrə dünya kuboku turnirində yarımfinal mərhələsinin cavab partiyaları oynanılıb.



AZƏRTAC xəbər verir ki, bu mərhələdə Azərbaycan şahmatçısı Teymur Rəcəbov fransalı Maksim Vaşe-Laqrav ilə üz-üzə gəlib. Şahmatçımızın birinci partiyada görüşü heç-heçə başa çatıb. Cavab partiyasında isə T.Rəcəbov qalib gəlib. İki oyunun nəticəsinə görə, şahmatçımız turnirin finalına vəsiqə qazanıb. Vəsiqə ilə yanaşı, təmsilçimiz iddiaçılar turnirinə vəsiqəni də təmin edib.

Xatırladaq ki, beş şahmatçımızın qatıldığı dünya çempionatında Arkadi Naydiç almaniyalı Niklas Huşenbetə, Nicat Abbasov ABŞ təmsilçisi Leyner Dominquez Perezə, Eltac Səfərli isə Şəhriyar Məmmədyarova uduzaraq mübarizəni dayandırıblar. Ş.Məmmədyarov isə səkkizdəbir finalda komanda yoldaşı T.Rəcəbova məğlub olaraq turnirdə iştirakını başa vurub.

Dünya kubokunun finalına yüksələcək şahmatçılar 2020-ci ildə şahmat tacına iddiaçılar turnirində iştirak hüququ qazanacaqlar.

FIDE prezidenti Arkadi Dvorkoviç bildirib ki, turnirin bürünc mükafatçısı da təşkilatçıların xüsusi dəvətnaməsi olacağı halda belə bir hüquqa yiyələnə bilər.

Sentyabrın 10-da start götürən dünya kuboku turnirinə oktyabrın 4-də yekun vurulacaq. Sonuncu gün həlledici görüşlər üçün tay-breyk qarşılaşmaları nəzərdə tutulub. Turnirin mükafat fondu 1,6 milyon dollardır.

Azercell

## abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 30.09.2019, 01.10.2019 və 02.10.2019-cu il tarixlərdə gecə saatlarında bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra bütün xidmətlərin tam normal əsaslarla fəaliyyət göstərməsi imkanı təmin ediləcəkdir.

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 07 sentyabr 2019-cu il tarixli nömrəsində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Mənzil-Kommunal və Təmir Xidmətinin LOT-1. Maşın - mexanizmlərin və elektromobillərin ehtiyat hissələrinin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tenderdə iştirak etmək üçün sənədlərin qəbulu vaxtı (tender təklifi və bank təminatı istisna olmaqla) elektron portala 03 oktyabr 2019-cu il saat 17:00-a qədər, tender təklifi və bank təminatı isə möhürlənmiş ikiqat zərfdə 10 oktyabr 2019-cu il saat 17:00-a, təkliflərin açılışı isə 15 oktyabr 2019-cu il saat 10:00-a dəyişdirilmişdir.

**Əlaqələndirici şəxs: Mahir Əhmədov, telefon: (012) 492-24-27.**

***Tender komissiyası***

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Qazıbəyovlar ailəsinə əzizləri

**ETİBAR QAZIBƏYOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Milli Məclisin deputatı Hüseynbala Mirələmov Qazıbəyovlar ailəsinə əzizləri

**ETİBAR QAZIBƏYOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9028
Sifariş 3166
Qiyməti 40 qəpik